№ 39 (1034) 27 sentyabr - 3 oktyabr 2018-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Azərbaycanın uğurlu inkişafında parlamentin rolu böyükdür

Sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xaricdən dəvət olunmuş çoxsaylı qonaqlar iclasda iştirak ediblər.

Dövlətimizin başçısı iclasda nitq söyləmişdir. O, demişdir:

-Dörd ay bundan əvvəl biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etdik. Bu, tarixi hadisə idi. Çünki ilk dəfə idi ki, müsəlman aləmində demokratik respublika yaradılmışdır və Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bu respublikanı yaradan biz olmuşuq.



Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Ancaq buna baxmayaraq, Azərbaycan Demokratik Respublikası bir çox işləri görə bildi. Dövlət atributları təsis edildi və bu gün bizim dövlət bayrağımız, dövlət himnimiz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş dövlət atributlarıdır. Azərbaycan dili rəsmi dil kimi elan edilmişdir. İyunun 26-da Azərbaycan Milli Ordusu yaradılmışdır ki, bir neçə ay bundan sonra Qafqaz İslam Ordusu ilə birlikdə Azərbaycan Milli Ordusu və könüllülər Bakını işğalçılardan azad etdilər.

Təhsillə bağlı çox önəmli qərarlar qəbul edilmişdir, o cümlədən Bakı Dövlət Universitetinin yaradılması haqqında qərar qəbul olunmuşdur. Gələn il biz Bakı Dövlət Universitetinin 100 illiyini qeyd edəcəyik.

Bir çox qanunlar qəbul edilmişdir, daha doğrusu, 200-dən çox qanun qəbul edilmişdir. Qadınlara səsvermə hüququ verilmişdir. Yəni, qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti böyük işlər gördü. Bu gün Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirir. Təsadüfi deyil ki, 2018-ci il mənim Sərəncamımla "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir.

Bu il biz Azərbaycanda və bir çox ölkələrdə Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı bir çox önəmli tədbirlər keçirmişik. Azərbaycanda müntəzəm olaraq tədbirlər keçirilir. Onların arasında, əlbəttə ki, 28 May günü ilə əlaqədar keçirilmiş təntənəli tədbirləri xüsusilə qeyd etmək istərdim. Ondan sonra Azərbaycan Milli Ordusunun 100 illiyinə həsr edilmiş möhtəşəm hərbi paradı qeyd etməliyəm. Bir neçə gün bundan əvvəl - sentyabrın 15-də ikinci möhtəşəm hərbi parad keçirilmişdir. Bakının işğalçılardan azad edilməsi günü təntənəli şəkildə qeyd edildi. O gün Qafqaz İslam Ordusu, Azərbaycan Milli Ordusu, könüllülər Bakını işğalçılardan azad etmişlər və Azərbaycan hökuməti iki gündən sonra Gəncədən Bakıya köçə bilmişdir. Bizim tarixi şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz sahiblərinə qaytarılmışdır.

Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı, süqut etdi və Azərbaycan dövlət müstəqilliyini itirdi. Bu, onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuşdur. Bu, tarixi şans, tarixi xoşbəxtlik idi. Çünki Azərbaycan xalqı əsrlər boyu müstəqillik, azadlıq eşqi ilə yaşamışdır.

**(davamı 2-ci səhifədə)**

## "Azərspace 2" peyki orbitə buraxıldı

Azərbaycanın "Azerspace-2" peyki sentyabrın 26-da Fransa Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə xalqımızı təbrik edib.

Tebrikdə deyilir:

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün "Azərspace 2" peykimiz orbitə çıxarıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, ölkəmizin növbəti qələbəsidir, dövlətimizin növbəti uğurudur.

Son beş il ərzində Azərbaycan orbitə 3 peyk çıxara bilmişdir. Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü göstərir, bizim siyasətimizi göstərir. Bizim artıq 3 peykimiz var: "Azərspace 1" telekommunikasiya peyki, "Azərsky" müşahidə peyki və "Azərspace 2".

Bildiyiniz kimi, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd edilir. Mənim Sərəncamımla 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmişdir. Eyni zamanda, gələn ay biz müstəqilliyimizin bərpasının 27-ci ildönümünü qeyd edəcəyik. Biz "Azərspace 2" peykimizin orbitə çıxarılmasını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edirik.

Bu peyklərin çox böyük əhəmiyyəti var. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır. Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edə bilirlər. Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür. Eyni zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir. Kosmik sənayenin inkişafı bu sahədə beynəlxalq əməkdaşlığımızı da dərinləşdirir. Biz dünyanın bu sahədə böyük təcrübəyə malik olan aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edirik.

Peyklərin, eyni zamanda, kommersiya tərəfi var. Bu gün Azərbaycan öz məhsulunu ixrac edir və peyklərin fəaliyyəti nəticəsində ölkəmizə valyuta gəlir. Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır. "Azərsky" müşahidə peyki vasitəsilə biz nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim müntəzəm olaraq izləyə bilirik, nəzarət edə bilirik. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azərsky" peykinin xüsusi rolu vardır. Bu peykin fəaliyyəti nəticəsində biz bu sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdıq və bir çox ölkələr üçün peyk xidməti göstəririk.

İnfrastruktur layihələrimizin icrası və mövcud infrastrukturun qorunması üçün peyklərin böyük əhəmiyyəti var. Kənd təsərrüfatının inkişafı, ekoloji vəziyyətə nəzarət, torpaqlardan səmərəli şəkildə istifadə edilməsi – bütün bu işlərdə "Azərsky" müşahidə peykinin xüsusi rolu var.

Bir sözlə, əziz vətəndaşlar, əziz dostlar, bu gün ölkəmizin həyatında növbəti əlamətdar bir gündür. Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azərspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək.

Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## "ADEX-2018" ölkəmizin hərbi qüdrətini nümayiş etdirir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bakı Ekspo Mərkəzində açılan "ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub.

Müdafiə naziri Zakir Həsənov və müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev Prezident İlham Əliyevə məlumat verdilər ki, bu il sərgidə dünyanın 29 ölkəsini təmsil edən 224 şirkət iştirak edir. Regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından ibarət olan genişmiqyaslı bu tədbir müasir silah və avadanlıqların, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücü və qüdrətinin nümayişi üçün geniş imkanlar açır. Azərbaycanın hərbi sənaye kompleksinin geniş təmsil olunduğu sərgidə "Matador", "Marauder" və digər zirehli hərbi texnikalar, o cümlədən tank əleyhinə raket kompleksi böyük maraqla qarşılanır.

Hava hücumundan müdafiə silahlarının və hərbi texnikaların servis xidməti mərkəzinin stendi ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, Azərbaycan-Belarus birgə müəssisəsi əsasən silahlanma sistemlərinin təkmilləşdirilməsi və modelləşdirilməsi, hərbi elmi-tədqiqat işi, yeni silahlanma sistemlərinin inkişafı, qoşun və silahlanmada nəzarət sistemləri üçün texniki və proqram vasitələrinin təminatının hazırlanması ilə məşğuldur.

Türkiyənin "Aselsan" şirkəti də artıq üçüncü dəfədir sərgidə iştirak edir və onun təqdim etdiyi məhsullar da maraqla qarşılanır.

Təkərli zirehli texnikanın istehsalı sahəsində ixtisaslaşan Rusiyanın Hərbi Sənaye Şirkəti isə müdafiə, hüquq-mühafizə və terrora qarşı mübarizə sahələrində silsilə tapşırıqların həllinə görə zirehli texnikaları tədarük etməklə 50-dən çox ölkədə dövlət orqanları ilə və özəl şirkətlərlə əməkdaşlıq edir.

İsrailin "Elbit Systems" şirkəti də sərgiyə böyük maraq göstərir və o, dünyada müdafiə, milli təhlükəsizlik və kommersiya təyinatlı silsilə proqramların hazırlanması ilə məşğul olan beynəlxalq şirkətdir. "Elbit" və onun törəmə müəssisələri aerokosmik, quru və donanma sistemləri, komanda, nəzarət, kommunikasiya, kompüter, məlumattoplama, müşahidə və kəşfiyyat, pilotsuz uçuş sistemlərinin istehsalı üzrə fəaliyyət göstərir.

## İtaliya şirkətlərinin mövcud şəraitdən istifadəsi üçün bütün qapılar açıqdır

### "Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra İtaliya-Azərbaycan əlaqələri çox uğurla inkişaf edir"

Bu fikri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva Romada keçirilən "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfransda bildirmişdir.

O qeyd etmişdir: "Parlamentlərarası dostluq qrupları, hökumətlərarası komissiya fəaliyyət göstərir. 2014-cü ildə İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında birgə Bəyannamə qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti dəfələrlə İtaliyada rəsmi səfərdə olmuşdur. Bu ilin iyul ayında da İtaliya Respublikasının Prezidenti cənab Mattarella Azərbaycanda səfərdə olmuşdur. Bu, tarixi bir hadisədir. Səfər çox uğurla keçdi və əminəm ki, ikitərəfli münasibətlərimizin möhkəmlənməsinə öz töhfəsini verməkdədir".

İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu vurğulayan Mehriban Əliyeva Azərbaycanda müxtəlif sahələrdə 95 İtaliya şirkətinin fəaliyyət göstərdiyini diqqətə çatdırmışdır. O xatırlatmışdır: "Bu ilin iyul ayında Azərbaycan və İtaliya prezidentlərinin iştirakı ilə Sumqayıtda SOCAR Polimer layihəsi çərçivəsində polipropilen zavodunun açılışı olmuşdur. Bu zavodun tikintisinin podratçısı İtaliyanın "Maire Tecnimont" şirkətidir. Cari ilin fevral ayında "Maire Tecnimont" şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında Heydər Əliyev adında Bakı neft emalı zavodunun modernləşdirilməsi və yenidən qurulması haqqında müqavilə bağlanmışdır.

Təkcə bu layihələrin ümumi dəyəri 2,5 milyard dollar təşkil edir. "Maire Tecnimont" şirkətinin bu layihələrdə payı 1,3 milyard dollardır. Bu rəqəmlər bir tərəfdən Azərbaycan ilə İtaliya arasında olan iqtisadi əlaqələrin miqyasını, digər tərəfdən ölkəmizdə mövcud olan iqtisadi inkişafın dinamikasını və miqyaslarını göstərir.



Azərbaycan regionun aparıcı dövlətidir. Bütün irimiqyaslı layihələr Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilir. Ötən ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı oldu və bu dəmir yolu istifadəyə verildi. Bu, Avropa ilə Asiyanı bağlayan ən qısa yoldur.

Ölkəmiz Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Azərbaycan tərəfdaş ölkələrlə "Cənub Qaz Dəhlizi" layihəsini uğurla icra edib. Bu ilin may ayında layihənin Bakıda rəsmi açılışı oldu. Layihənin böyük hissəsini təşkil edən TANAP boru kəmərinin açılışı bu ilin iyun ayında Türkiyənin Əskişəhər şəhərində olmuşdur.

Ümumi dəyəri 40 milyard dollar olan bu layihə Azərbaycan qazını Avropaya nəql edəcəkdir".

Konfransda çıxış edən İtaliya Respublikası Senatının sədri Maria Elisabetta Alberti Kasellati Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin İtaliyada qeyd olunmasını şərəfli hadisə kimi dəyərləndirmiş, Azərbaycan-İtaliya əlaqələrinə toxunaraq ölkələrimiz arasındakı münasibətlərin qədim tarixinin olduğunu bildirmişdir.

Sonra konfrans işini panel iclaslarla davam etdirmişdir. Sonda Azərbaycan Xalq Cümhuriyyəti haqqında qısa film nümayiş olunmuşdur.

Mehriban Əliyeva Romada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə verilən rəsmi ziyafətdə iştirak etmişdir.

Ancaq uzun illər ərzində başqa dövlətlərin tərkibində idi. 1991-ci ildə ikinci dəfə bizə belə imkan yarandı. Ancaq əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri Azərbaycanda çox böyük fəlakətlərlə müşayiət olunurdu. Ölkə iqtisadiyyatı ağır vəziyyətdə idi, siyasi proseslər vəziyyəti gərginləşdirirdi, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti vüsət alırdı, daxildə çəkişmələr imkan vermirdi ki, Azərbaycan uğurla inkişaf etsin. 1992-ci ildə dövlət çevrilişindən sonra vəziyyət daha da ağırlaşdı və Azərbaycan çox çətin çağırışlarla üz-üzə qalmışdı. 1992-ci ildə hakimiyyətə gəlmiş qüvvələr ölkəmizi uçuruma aparırdı, ölkəmizdə siyasi-iqtisadi böhran dərinləşirdi, Ermənistan işğalçılıq siyasətini genişləndirirdi, torpaqlarımız işğal altına düşürdü, iqtisadiyyat tamamilə iflic olmuşdu və ölkəmizdə vətəndaş müharibəsinə start verildi, qardaş qanı töküldü. Bu ağır, çətin günlərdə Azərbaycan xalqı müdriklik göstərərək yeganə düzgün addım atmışdır, Heydər Əliyevi hakimiyyətə dəvət etmişdir və bu tarixi addım ölkəmizin müasir tarixində dönüş nöqtəsi idi.

**Heydər Əliyevə Azərbaycan xalqının rəğbəti, dəstəyi həmişə çox böyük olmuşdur. Bunun əsas səbəbi ondan ibarətdir ki, o, Azərbaycana sovet dövründə rəhbərlik edən zaman respublikamızın uğurlu inkişafına təkan vermişdi.**

O vaxt Azərbaycan sovet məkanında 15 respublikadan fərqlənirdi, çünki Rusiyadan başqa cəmi iki respublika donor kimi fəaliyyət göstərirdi, onlardan biri Azərbaycan idi. Azərbaycan ən geridə qalmış yerdən Heydər Əliyevin dövründə, 1980-ci illərin əvvəllərində ən qabaqcıl yerlərə çıxmışdır və insanların rifah halı böyük dərəcədə yaxşılaşmışdır. Digər səbəblər isə ağır günlərdə Heydər Əliyevin cəsarətli addımları ilə bağlıdır. 20 Yanvar faciəsindən sonra o, dərhal sovet hökumətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayəti rəsmən pislədi, Kommunist Partiyasından çıxdı və Azərbaycan xalqı onun simasında liderini gördü. Ondan sonrakı dövr Naxçıvan Muxtar Respublikası ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın Ali Məclisinin iclasında rəsmi dövlət bayrağı kimi tanınması tarixi hadisə idi. Deyə bilərəm ki, bu, müstəqilliyə aparan önəmli addımlardan biri idi.

Bütün dövrlərdə Heydər Əliyev xalqla birlikdə idi. Məhz buna görə ağır günlərdə, faciəvi günlərdə Azərbaycan xalqı ona müraciət etmişdir. 1993-cü il iyunun 15-də bu salonda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin sədri vəzifəsinə seçilmişdir. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Çünki o vaxta qədər dünyadakı erməni lobbisi belə bir təsəvvür yaratmışdı ki, guya Azərbaycan təcavüzkar dövlətdir və Azərbaycan Ermənistana qarşı təcavüz edir. Halbuki, bizim torpaqlarımız işğal altına düşürdü.

Azərbaycana böyük həcmdə sərmayə qoyuluşunun təmin edilməsində Heydər Əliyevin müstəsna rolu var. Dünən biz "Əsrin kontraktı"nın 24-cü ildönümünü qeyd etdik və "Əsrin kontraktı" olmadan Azərbaycanın bugünkü sürətli inkişaf dinamikasını təsəvvür etmək mümkün deyil.

Bu gün Azərbaycan uğurla inkişaf edir və mən bu inkişafda Azərbaycan parlamentinin rolunu xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan parlamenti həm Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir. Bir çox qanunlar qəbul edilmişdir. Demək olar ki, bu qanunlar həyatımızın bütün sahələrini əhatə edir. Bizim qanunvericilik bazamız ən yüksək meyarlara cavab verir. Biz bir çox beynəlxalq konvensiyalara qoşulmuşuq və azadlıqların təmin edilməsində, demokratik inkişafla bağlı siyasətimizin aparılmasında Azərbaycan parlamentinin çox böyük rolu var. Azərbaycan parlamenti ölkəmizdə çoxpartiyalı sistemin təkmilləşdirilməsində önəmli rol oynayır. Parlamentdə bir çox partiyaların nümayəndələri fəaliyyət göstərir və əlbəttə ki, onların müxtəlif məsələlərə fərqli baxışları var. Ancaq mən çox şadam ki, milli maraqlarla bağlı məsələlərdə bizim deputatlar bir nöqtəyə vurur və vətənpərvərlik göstərərək Azərbaycan dövlətinin maraqlarını beynəlxalq müstəvidə müdafiə edirlər. Parlament diplomatiyası Azərbaycanda diplomatik sahədə önəmli rol oynayır. Mən qeyd etməliyəm ki, Azərbaycan deputatları beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iş aparırlar. Bu, Azərbaycan xalqı tərəfindən də qiymətləndirilir, mən də bunu izləyirəm və deməliyəm ki, doğrudan da çox böyük iş aparılır. Azərbaycan deputatları bir çox parlamentlərarası assambleyalarda ölkəmizdə gedən prosesləri, iqtisadi, siyasi islahatlarla bağlı Azərbaycan həqiqətlərini çatdırır, lazım olan vaxtda Azərbaycanı çox ciddi müdafiə edir, haqq-ədaləti bərpa edir, imkan vermirlər ki, Azərbaycana qarşı əsassız ittihamlar hansısa qərarlara gətirib çıxarsın.

Əlbəttə ki, Azərbaycan deputatlarının fəaliyyətində əsas istiqamətlərdən biri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya birliyinə, öz həmkarlarına həqiqətləri çatdırılmasıdır. Mən hesab edirəm ki, bu işdə çox böyük uğurlara nail olmuşuq. Son illərdə bir neçə təşkilat, o cümlədən Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli, beynəlxalq hüquqa söykənən, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul etmişlər və bu sahədə fəaliyyət davam etdiriləcək. Mən əminəm ki, Azərbaycan parlamenti bundan sonra da həm ölkə daxilində gedən proseslərin sürətləndirilməsinə, həm də Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsinə öz müsbət töhfəsini verəcəkdir.

**Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ən böyük ədalətsizlikdir.** Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb. Bu torpaqların tarixi toponimləri, tarixi abidələri, bizim milli irsimiz onu göstərir ki, bu torpaqlarda Azərbaycan xalqı əsrlər boyu yaşayıb. Bu gün bu torpaqlar işğal altındadır. Nəinki Dağlıq Qarabağ, onun ətrafında yerləşən yeddi rayon da Ermənistan tərəfindən işğal edilib. Bu torpaqlarda bütün infrastruktur dağıdılıb. Dağıdılmış şəhərlərimizin şəkilləri internetdə dərc edilir, bunu hər kəs görə bilər. Bizim bütün milli sərvətimiz, muzeylərimiz ermənilər tərəfindən talan edilib, tarixi abidələrimiz, məscidlərimiz dağıdılıb. Azərbaycan xalqına qarşı hərbi cinayət törədilib. Xocalı soyqırımı törədilib, bir gecə ərzində ermənilər 600-dən çox günahsız insanı, o cümlədən 100-dən çox qadını, 60-dan çox uşağı vəhşicəsinə qətlə yetiriblər. Bu gün 10-dan çox ölkənin parlamenti Xocalı soyqırımını rəsmən tanıyıb və bu proses bundan sonra da gedəcəkdir.

Bütün beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərar və qətnamələr qəbul etmişlər. Onların arasında əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini xüsusilə qeyd etmək istərdim. Bu qətnamələrdə açıq-aydın deyilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Ermənistan 20 ildən çoxdur ki, bu qətnamələrə əməl etmir, onlara məhəl qoymur və beləliklə, öz işğalçılıq siyasətini davam etdirir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar da Ermənistana qarşı heç bir sanksiya tətbiq etmir. Hesab edirəm, bunun vaxtı gəlib çatıb ki, işğalçıya qarşı çox ciddi tədbirlər görülsün və bu, ədalətli olardı. Bu məsələ ilə bağlı biz beynəlxalq təşkilatların fəaliyyət mexanizmlərinə də fikir verməliyik. Əgər dünyanın ən ali orqanı olan BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilmirsə, onda əlbəttə ki, bu orqanın nüfuzu o qədər də yüksək səviyyədə ola bilməz. Münaqişənin həllinin bir yolu var. Ermənistan silahlı qüvvələri bizim torpaqlarımızdan çıxarılmalıdır, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və ondan sonra bölgədə sülh yarana bilər. Azərbaycanın ərazi bütövlüyü isə bütün dünya tərəfindən tanınır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

**Mən hesab edirəm ki, bundan sonrakı dövrdə Ermənistanın yeni rəhbərliyi bu məsələ ilə bağlı öz siyasətində ciddi düzəlişlər etməlidir. Çünki bu gün Ermənistandan səslənən çox ziddiyyətli və bəzən cəfəng fikirlər münaqişənin həllinə yox, onun dərinləşməsinə xidmət göstərir. Azərbaycan öz prinsipial mövqeyindən geri dönməyəcək. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından da Azərbaycan torpağıdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa edilməlidir.**

Münaqişəyə, böyük humanitar fəlakətə baxmayaraq, - bir milyondan çox insan bu münaqişədən əziyyət çəkir, - Azərbaycan inkişaf yolundadır, Azərbaycanın inkişafı çox sürətlidir. Ermənistan isə, əksinə, getdikcə daha da zəifləyir. Ermənistanda bu ilin yazında baş vermiş çevriliş əslində göstərir ki, əvvəlki rejim xalqın dəstəyini tam itirmişdir. İyirmi il Ermənistana rəhbərlik etmiş rejim çökdü və bu, bir daha onu göstərir ki, onların işğalçılıq siyasəti iflasa uğradı. Eyni zamanda, beynəlxalq təşkilatlar da bu məsələ ilə bağlı gərək ciddi təhlil aparsınlar və özlərinə sual versinlər ki, necə ola bilər, Ermənistanda son müddət ərzində keçirilmiş parlament və prezident seçkilərinə beynəlxalq müşahidəçilər müsbət reaksiya vermişlər. Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər kobudcasına saxtalaşdırılır? Bilmirdilər ki, orada əvvəlki rejimin hörməti sıfıra bərabərdir? Bilirdilər, ancaq hansısa səbəblərə görə göz yumurdular. İndi də Ermənistanda yaranmaqda olan yeni diktatura rejimi demək olar ki, eyni siyasəti aparır. Siyasi rəqiblərə qarşı zorakılıq həyata keçirilir, siyasi rəqiblər həbsə alınır, mətbuat nümayəndələrinə qarşı repressiyalar aparılır, mətbu orqanlar bağlanır, dövlət orqanları siyasi rəqiblərinin həbsi ilə bağlı açıq-aşkar göstərişlər verir, bu göstərişləri bütün dünya eşidir. Bir dənə də olsun beynəlxalq təşkilat, xüsusilə mətbuatla, media azadlıqları, insan haqları ilə bağlı olan təşkilatlar səsini çıxarmır. Sual olunur, nəyə görə Ermənistanda gedən bu təhlükəli proseslərə beynəlxalq təşkilatlar reaksiya vermir? Bunun arxasında hansı səbəblər var? Bu, çox ciddi araşdırılmalıdır. Biz onsuz da yaxşı bilirik ki, bəzi beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı ikili standartlar siyasəti aparılır. Biz buna öyrəşmişik və buna qarşı mübarizə aparırıq. Bizim mübarizəmiz çox tutarlı arqumentlərlə dəstəklənir. Bayaq qeyd etdiyim kimi, deputatlarımız bizə qarşı aparılan çirkin kampaniyalarla bağlı öz sözlərini tutarlı arqumentlərlə deyirlər. Bizə qarşı irəli sürülən ittihamlar 100 faiz saxtadır, yalandır, ikili standartlar əsasındadır və siyasi məqsədlər güdür. Onu da bildirməliyəm ki, bu hücumlar, bu ittihamlar bizim siyasi iradəmizə zərrə qədər təsir etmir və etməyəcək. Amma Ermənistan açıq-aşkar repressiya siyasətini aparır, medianı boğur, siyasi opponentlərini həbsə alır, baş nazir onların həbsi ilə bağlı göstəriş verir və buna heç bir reaksiya verilmir. Bu, çox düşündürücü məsələdir və hesab edirəm ki, beynəlxalq təşkilatlar bizim bu sualımıza mütləq cavab verməlidirlər. Verməsələr, deməli, onlar bu yeni yaranan diktatura rejimi ilə əlbirdirlər.



Ermənistanda gedən proseslərə baxdıqda istər-istəməz müəyyən paralellər meydana çıxır. 1992-ci ildə də Azərbaycanda hakimiyyətə insanlar meydanlardan, küçələrdən gəlmişdilər. Onların heç bir təcrübəsi, siyasi biliyi yox idi. Onlar iqtisadiyyatın nə olduğunu bilmirdilər. Ümumiyyətlə, onlar cəmiyyətdə elementar davranış qaydalarını gözləmirdilər. Nəticədə Azərbaycan xalqı o hakimiyyətə cəmi bir il dözə bildi və ondan sonra onlar siyasi səhnədən birdəfəlik çıxarıldılar. Ermənistanda da biz eyni mənzərəni görürük. Meydanda çığırıb-bağıranlar bu gün yüksək postlara təyin olunur, heç bir təcrübəsi olmayan insanlar bu gün Ermənistanın taleyini həll edirlər. Yeni hökumət tərəfindən atılan addımlar onu göstərir ki, bu adamların heç bir biliyi, hazırlığı yoxdur və bu, nəinki Ermənistan üçün, bölgə üçün böyük təhlükə mənbəyidir. Bir tərəfdən, - mən bunu artıq bir dəfə demişəm, - indiki Ermənistan hakimiyyəti nə qədər çox hakimiyyətdə qalsa, bizim üçün bir o qədər yaxşıdır. Çünki o, mövcud olan problemlərin üstünə problemlər gətirir. Onsuz da Ermənistan işğalçılıq siyasətinə görə böhran, tənəzzül içindədir. Rəsmi statistikaya görə orada yoxsulluq 30 faizə, amma real vəziyyətdə 50 faizə çatır. Kütləvi işsizlik, depopulyasiya, insanların kütləvi şəkildə köçü baş verir. İqtisadi inkişaf üçün heç bir əsas yoxdur. Heç kim investisiya qoymaq istəmir, bazar məhduddur, xarici bazarlara çıxış yoxdur. Bu mövcud problemlər, üstəgəl onların işğalçılıq siyasəti faktiki olaraq əvvəlki kriminal rejimin çökməsinə gətirib çıxardı. Amma biz görürük ki, indi yeni hökumət də eyni yolla getmək istəyir. Bu ağır, çətin vəziyyətdən xilas üçün Ermənistanın yeganə yolu var, o da bizim torpaqlarımızdan çıxmaqdır. Ondan sonra onların inkişafı üçün şərait yaradıla bilər. Əgər onlar işğalçılıq siyasətini davam etdirmək istəyirlərsə, bilməlidirlər ki, bunun axırı olmayacaq. Bunun axırı onlar üçün çox pis olacaq.

Baxmayaraq ki, torpaqlarımız işğal altındadır, bir milyondan çox köçkün və qaçqınımız var, Azərbaycan uğurla inkişaf edir və inkişaf üçün çox gözəl perspektivlər var. Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq. Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüquqi torpağı ondan ayrılsın. Qoy, Ermənistan bu xülyalarla yaşamasın. Qoy, Ermənistan rəhbərliyi öz xalqını aldatmasın. Biz bütün imkanlardan istifadə edirik və edəcəyik ki, ərazi bütövlüyümüzü bərpa edək və bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Təkcə BMT Təhlükəsizlik Şurası deyil, BMT-nin Baş Assambleyası, ATƏT, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. Bu il Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan Tərəfdaşlıq Prioritetləri adlı sənəddə Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü dəstəklənir. Qonşu dövlətlər bizim ərazi bütövlüyümüzü tanıyır və dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə münaqişə ilə bağlı qətnamələr qəbul etmişdir. Onların hamısı bizim mövqeyimizi müdafiə edir. Yəni, bu, məsələnin beynəlxalq hüquqi tərəfidir. Real həyatda biz nəyi görürük: Ermənistan uğursuz dövlətdir. Əgər bir ölkəni 20 il ərzində kriminal xunta rejimi idarə edibsə, - müstəqilliyi cəmi 26 il olan dövlətdən söhbət gedir, - onda bu dövlətə hansı ad vermək olar? Ancaq uğursuz dövlət. Bu uğursuzluq, əslində, onların işğalçılıq siyasəti nəticəsində olmuşdur. Azərbaycansız bölgədə heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz və getdikcə bizim gücümüz - siyasi çəkimiz, iqtisadi potensialımız, hərbi gücümüz artır, beynəlxalq mövqelərimiz möhkəmlənir. Bu gün bizim siyasətimiz, - mən bunu bir daha demək istəyirəm, bu, sirr deyil, - Ermənistanı tam təcrid edilmiş vəziyyətə salmaqdır, iqtisadi dayaqlarını, - ona dayaq da demək olmaz, - çökdürməkdir. Nəyə görə? Çünki biz torpaqlarımızı istəyirik. Bizə deyirlər ki, məsələni sülh yolu ilə həll edin. Biz də çalışırıq ki, bunu edək. Amma bunu etmək üçün gərək sənin qarşında adekvat bir tərəf olsun. Biz bu adekvatlığı görmürük. İndi Ermənistanın qeyri-adekvat addımları, hərəkətləri, yüksək kürsülərdən səslənən bəyanatları bu ölkəni daha da ağır vəziyyətə salacaq. Onunla bizim işimiz yoxdur. Amma bu, münaqişənin həlli üçün indi böyük problemə çevrilir.

Ona görə biz bundan sonra da öz siyasətimizi aparacağıq. Bizim iqtisadi potensialımız da artır. İndi Ermənistanla Azərbaycan arasında fərq yerlə-göy qədərdir. Bu gün Azərbaycan iqtisadi cəhətdən inkişafda olan ölkədir, Ermənistan isə yoxsul, başqasının əlinə baxan, ianələrlə dolanan bir ölkədir. Biz, əlbəttə ki, bundan sonra da öz siyasətimizi aparacağıq.

**Bir daha demək istəyirəm ki, Azərbaycan beynəlxalq məsələlərlə bağlı çox uğurlu siyasət aparır, qonşu ölkələrlə əlaqələrimiz ən yüksək səviyyədədir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox böyük hörmətə layiqdir. Avropa İttifaqının üzvü olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədimiz var və bu il Tərəfdaşlıq Prioritetləri sənədi imzalanıb.**

Bax, budur bizim uğurlu xarici siyasətimiz ki, bu gün daxili inkişafımıza da müsbət təsir göstərir. O ki qaldı, iqtisadi sahəyə, son 15 il ərzində iqtisadi baxımdan Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyat 3,2 dəfə artmışdır və bu artım bu gün davam edir. Təsadüfi deyil ki, cəmi 26 yaşı olan ölkəmiz Davos Dünya İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabiliyyətlilik hesabatına görə, dünya miqyasında 35-ci yerdədir. Təsəvvür edin, dünyada 200-dən çox ölkə var. Azərbaycan 35-ci yerdədir. Rəqabətqabiliyyətliliyin hesablanması bütün sahələri əhatə edir, təkcə enerji resurslarını yox. Yenə də Davos Forumunun inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksi üzrə hesablamalarına görə, Azərbaycan 3-cü yerdədir. Azərbaycan infrastrukturun səviyyəsinə görə, dünya miqyasında 26-cı yerdədir. Bütün bunları biz yaratmışıq, yorulmaz fəaliyyət nəticəsində, xalq-iqtidar birliyi sayəsində. Ona görə bizim iqtisadi inkişafla bağlı fikirlərimiz çox ümidvericidir və çox müsbətdir.

**Biz güclü ordu qurmuşuq. Bu il Bakıda iki hərbi parad keçirilmişdir - həm ordumuzun, həm də Bakının işğaldan azad edilməsinin 100 illiklərinə həsr edilmiş paradlar.** Paradlarda nümayiş etdirilən imkanlarımız hesab edirəm ki, çox təsirlidir. Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və bu, reallıqdır. Bir sözlə, biz ölkəmizi bundan sonra da bu siyasətlə inkişaf etdirəcəyik. Bu gün biz innovasiyalara, texnologiyalara daha çox üstünlük veririk. Bir neçə gündən sonra Azərbaycan orbitə üçüncü süni peyki çıxaracaq. Azərbaycan artıq bir neçə ildir ki, kosmik klubun üzvüdür. Orbitdə iki peykimiz var, üçüncü də çıxarılır.

**Enerji siyasətimizə gəldikdə, bunun təsiri təkcə ölkəmizdə hiss olunmur, Azərbaycanın təşəbbüsü ilə bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr önəm daşıyır.** Biz dənizləri birləşdiririk. Xəzər dənizini neft kəmərləri ilə Qara dənizlə, Aralıq dənizi ilə, Azərbaycanı isə qaz xətti ilə Avropa ilə birləşdiririk. Bu gün həyata keçirilən "Cənub Qaz Dəhlizi" bölgədə ən böyük infrastruktur layihələrindən biridir, ümumi dəyəri 40 milyard dollara bərabərdir. Demək olar ki, bu layihə enerji xəritəsini tamamilə yenidən yaradır. Əlbəttə ki, Azərbaycan öz coğrafi vəziyyətindən bundan sonra da uğurla istifadə edəcək. Nəqliyyat mərkəzlərindən birinə çevrilməyimiz artıq reallıqdır. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Keçməyə də bilərdi, əgər biz bu coğrafiyaya böyük sərmayə qoymasaydıq, əgər qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz olmasaydı. Əgər onun qonşularla münasibətləri yaxşı deyilsə, ölkə necə tranzit ölkəyə çevrilə bilər, bu, mümkün deyil. Ona görə də xarici siyasətimiz daxili vəziyyətimizin daha da yaxşı olmasına hesablanıb. Azərbaycanda daxildə təhlükə mənbələri yoxdur. Biz özümüzü mümkün olan risklərdən isə öz siyasətimizlə, o cümlədən uğurlu xarici siyasətimizlə qoruyuruq. Eyni zamanda, dünyada təhlükəsizliyə töhfəmiz də getdikcə artır. Təkcə təhlükəsizliyə yox, biz təhlükəsizliyi böyük dərəcədə şərtləndirən insanlararası, dinlərarası dialoqa da böyük töhfə veririk. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri çox rahat, bir ailə kimi yaşayırlar. Eyni zamanda, bu siyasət dünyaya lazımdır. Çünki bu gün dinlərarası məsələlər getdikcə narahatlıq doğurur. Toqquşmalar, anlaşılmazlıq, ayrı-seçkilik, ksenofobiya - bütün bunları biz dünyada görürük. Biz öz siyasətimizi ortaya qoyuruq, öz nümunəmizi göstəririk. Bakıda keçirilən bir çox beynəlxalq tədbirlər ən böyük beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Biz bu gün parlamentin 100 illiyini qeyd edirik. Yüz il bundan əvvəl, əlbəttə, Azərbaycan parlamenti öz funksiyalarını tam şəkildə icra edə bilmirdi. Biz, əlbəttə, müstəqil dövlət idik, ancaq onu da hamımız bilməliyik ki, 1918-1920-ci illərdə müstəqilliyimiz tam deyildi. Azərbaycan çox zəif bir ölkə idi. Azərbaycan müstəqil həyatda ilk addımlarını atırdı. Ölkə daxilində kifayət qədər çox problemlər var idi. Deyə bilmərəm ki, biz o vaxt beynəlxalq təcriddən tam çıxa bilmişdik. Bizi qəbul etməyənlər də var idi. Biz tarixi yaxşı bilirik. Bu gün isə Azərbaycan dünya xəritəsində bir uğur nümunəsidir. Bu gün Azərbaycan tam müstəqil siyasət aparır. Qeyd etdiyim bütün məsələlər - istər xarici siyasətlə, daxili siyasətlə, iqtisadiyyatla bağlı olan bütün nailiyyətlər bu məqsədə xidmət göstərir ki, bizim müstəqilliyimiz daha da möhkəmlənsin. Müstəqillik təkcə dövlət atributları deyil. Sən müstəqil siyasət apara bilirsən, yoxsa yox? Bunu uğurla apara bilirsən, yoxsa yox? Bu müstəqil siyasət sənə xeyir gətirir, yoxsa yox? Bax, bu suallara cavab verdikdə əminliklə deyə bilərik ki, bu gün tam şəkildə müstəqil siyasət aparan Azərbaycan öz milli maraqlarını tam şəkildə təmin edir. Azərbaycan parlamentinin bu işlərdə önəmli rolu var.

***Əziz dostlar, deputatlar, sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Sizə yeni uğurlar arzulayıram. Sağ olun.***

# 2019-cu ilin dövlət büdcəsi layihəsi hazırlanıb

***Sentyabrın 24-də Azərbaycanın Baş naziri Novruz Məmmədovun sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"na uyğun olaraq, Nazirlər Kabinetinin növbəti iclası keçirilib.***

İclasda Azərbaycan Respublikasının 2019-cu il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2019-cu il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə edilib.

Son illər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi siyasətin ölkəmizin dinamik inkişafına rəvac verdiyini vurğulayan Baş nazir N.Məmmədov bu baxımdan gələn ilin dövlət büdcəsinin layihəsinin də əldə olunan nailiyyətlər zəminində, habelə dünyada gedən qlobal maliyyə-iqtisadi proseslər nəzərə alınmaqla tərtib edildiyini bildirib.

O qeyd edib ki, layihənin hazırlanmasında dövlət büdcəsinin hər zamankı kimi sosial yönümlü olması, əhalinin maddi rifahının daim yüksəldilməsi əsas götürülüb, xüsusilə qeyri-neft sektorunun inkişafına dəstək verilməsi, dövlətin müdafiə qüdrətinin və təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq müstəvidə nüfuzunun daha da artırılması kimi mühüm amillərə diqqət yetirilib.

Büdcə layihəsi ətrafında aparılan geniş müzakirələrdən sonra qərara alınıb ki, təqdim olunan büdcə layihələri bəyənilsin və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, büdcə zərfinə daxil olan sənədlər toplusu Azərbaycan Prezidentinə təqdim edilsin.

* * * * *

Sentyabrın 24-də Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2018-ci il payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin 2018-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində komitədə görülən təşkilati işlər barədə məlumat verilib. Qeyd olunub ki, hesabat dövründə komitənin 15 iclası keçirilib, bu iclaslarda 62 məsələ, o cümlədən 61 qanun layihəsi müzakirə edilib. Komitə sədri Ziyad Səmədzadə gündəliyə daxil edilmiş qanunların bəzilərinin texniki və redaktə xarakterli dəyişikliklər olduğunu deyib.

Bunlara Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında 2017-ci il 15 dekabr tarixli Qanunun icrası məqsədilə "Aviasiya haqqında" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunlar da aiddir.

Azərbaycan Respublikası Vergi Məcəlləsində dəyişikliklər Məcəllənin 44.5-ci maddəsinin yeni redaksiyada verilməsini nəzərdə tutur. Həmin maddədə deyilir: "Ekspert qarşısında qoyulan suallar onun xüsusi biliyindən kənara çıxdıqda, yaxud təqdim olunan materiallar və sənədlər rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda, ekspert rəy verməkdən imtina edir".

Bundan əlavə, Gömrük Məcəlləsinə "Ekspert qarşısında qoyulan suallar onun xüsusi biliyindən kənara çıxdıqda, yaxud təqdim olunan materiallar və sənədlər rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda, ekspert rəy verməkdən imtina edir" məzmunlu 323.2-1-ci maddə əlavə edilir.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunda ediləcək dəyişikliyə əsasən, bu sənədin 27.2-ci maddəsinin müddəaları nəzərə alınmaqla, məhsul nümunələrinin tədqiqi (sınağı) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu növ işlərin aparılması üçün akkreditasiya edilmiş istənilən laboratoriyalarda və ya digər təşkilatlarda aparıla bilər.

# Aqrar sahənin inkişafının təmini müasir və innovativ texnologiyaların tətbiqi ilə bağlıdır



Azərbaycan son illər aqrar sahədə mühüm irəliləyişlərə nail olub və bu nümunəvi xarakter daşıyır. Dövlətimiz tərəfindən bu istiqamətdə konkret strategiya müəyyən edilib.

Bu barədə sentyabrın 24-də Azərbaycanda dayanıqlı ərzaq və kənd təsərrüfatının Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması töhfəsinin sürətləndirilməsi mövzusuna həsr edilən Milli Seminarda kənd təsərrüfatı naziri İnam Kərimov deyib.

Onun sözlərinə görə, Kənd Təsərrüfatı Nazirliyi bu strategiyanın həyata keçirilməsində əsas dövlət qurumlarından biridir və nazirlik hazırda bu sahədə qarşısında qoyulan vəzifələrin icrası ilə məşğuldur.

İ.Kərimov bildirib ki, nazirliyin əsas məqsədlərindən biri də respublika əhalisinin ərzaq təhlükəsizliyinə nail olmaq, qidalandırmanı yaxşılaşdırmaq, kənd təsərrüfatının dayanıqlı inkişafını təmin etmək, eyni zamanda, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq etməkdir.

# Yerli istehsalçıların məlumat bazası yaradılacaq

"Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətində ölkə ərazisində həyata keçirilən tədarük-təchizat sisteminin keyfiyyətinin daha da yüksəldilməsi ilə bağlı müşavirə keçirilib.

Qurumun İdarə Heyətinin sədr müavini Xaliq Məmmədov Səhmdar Cəmiyyətin fəaliyyətindən və qarşıda duran vəzifələrdən danışıb.

Bildirib ki, 2017-ci ili uğurlu nəticələrlə başa vuran qurum növbəti il üçün yerli istehsalçılardan 119 milyon manatdan artıq qida və kənd təsərrüfatı məhsulları tədarük edərək, dövlət satınalan təşkilatlarının tələbatına yönəldəcək.

Onun sözlərinə görə, dövlət büdcəsindən maliyyələşən 850 müəssisə və təşkilatla satınalma müqaviləsi imzalanıb. Eyni zamanda, daxili bazarın tələbatını ödəmək üçün regionlarda tədarük sistemi fasiləsiz olaraq fəaliyyət göstərməkdədir. **İlin 8 ayının yekunlarına görə, dəyəri 72 milyon manat olan 31 min ton məhsul tədarük edilərək tələbata yönəldilib.**



Müşavirədə çıxış edən Satınalma və təchizat işinin təşkili departamentinin müdiri Abbas Hacıyev, Tədarük və satışın koordinasiyası departamentinin müdiri Azər Ələkbərov payız mövsümündə tədarük-təchizat sisteminin gücləndirilməsi ilə bağlı təkliflər irəli sürüblər.

Qarşılıqlı müzakirələrdə Azərbaycanın kənd təsərrüfatı məhsullarının yaxın xarici ölkə bazarlarına ixrac imkanlarının genişləndirilməsi, tədarük-satış zəncirinin gücləndirilməsi ilə bağlı mobil fəaliyyətin təşkili, daxili və xarici bazarlarda gedən qiymət tendensiyalarının izlənilməsi, yerli istehsalçıların məlumat bazasının yaradılması qərara alınıb.

# Yaxın gələcəkdə Ticarətin Asanlaşdırılması Mərkəzi istifadəyə veriləcək



Bu sözləri Dövlət Gömrük Komitəsi sədrinin müavini İqbal Babayev deyib.

O bildirib ki, Qırmızı Körpü sərhəd-keçid məntəqəsinin Azərbaycan tərəfində tikilən binanın açılışı baş tutub və bir-iki ay ərzində Ticarətin Asanlaşdırılması Mərkəzi istifadəyə veriləcək. Mərkəz ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılmasında böyük rol oynayacaq.

# Gömrük Komitəsi 3 istiqamətdə islahatlar aparır

Bu barədə Dövlət Gömrük Komitəsi sədrinin müavini İqbal Babayev sentyabrın 25-də Qusarda KİV nümayəndələri üçün nəzərdə tutulan "Gömrük İslahatları və Modernləşdirilmə" mövzusunda təşkil edilən təlimin açılış mərasimində deyib.

O bildirib ki, bu islahatlar beynəlxalq standartlara cavab verən Avropa modelinin tətbiqinə, çevik idarəetmə sisteminin formalaşdırılmasına və nəzarət sistemindən xidmət sisteminə keçidə imkanlar yaradır.

Komitə tərəfindən aparılan 3 istiqamətdə islahatlara "Gömrük-Biznes", "Gömrük-Hökumət", "Gömrük-Gömrük" daxildir.

Sədr müavini gömrüyün fəaliyyətində dördüncü bir istiqamətin isə "Gömrük-Media" olmasını istədiyini qeyd edib.



# Avropa İttifaqı Azərbaycanda uzunmüddətli enerji strategiyasının hazırlanmasına tam dəstək verəcək




Avropa İttifaqının (Aİ) EU4Energy Proqramının dəstəyi, Energetika Nazirliyi, Avropa Komissiyası, Beynəlxalq Enerji Agentliyi, bir sıra dövlət qurumlarının nümayəndələri və ekspertlərin iştirakı ilə Azərbaycanda uzunmüddətli enerji strategiyasının hazırlanması metodologiyasına dair seminar keçirilib.

Nazirlikdən bildirilib ki, energetika nazirinin müavini Samir Vəliyev ölkəmizdə enerji strategiyasının hazırlanmasının metodologiyası ilə bağlı Avropa Komissiyasının dəstəyini yüksək qiymətləndirib. Nazir müavini deyib ki, energetika sektoru qarşısında mühüm hədəflər Strateji Yol Xəritəsində müəyyənləşdirilib və bu, enerji strategiyası ilə bağlı sənədin hazırlanması üçün baza rolunu oynaya bilər.

Azərbaycanla Avropa İttifaqı arasında enerji əməkdaşlığının hazırkı səviyyəsindən məmnunluğunu ifadə edən enerji və iqlim üzrə proqram meneceri Nataliya Miolato isə deyib ki, Aİ tərəfindən uzunmüddətli enerji strategiyasının hazırlanmasına tam dəstək veriləcək.

Bildirilib ki, sənəd hazırlanarkən ölkə üçün strateji hədəflər, inkişaf meyilləri, enerji resurslarının dinamikası, enerji təhlükəsizliyinin təminatı, enerji istehlakının strukturunda dəyişikliklər, bərpaolunan enerji mənbələri, beynəlxalq tendensiyalar, iqlim siyasəti kimi məsələlər nəzərə alınmalı və digər ölkələrin təcrübəsindən istifadə edilməlidir.

Tədbirdə enerji sahəsində strateji sənədlərin hazırlanmasına dair Avropa İttifaqı ölkələrinin təcrübəsi və enerji strategiyalarının təhlili, enerji sektorunun modelləşdirilməsi mövzularında təqdimatlar dinlənilib.

Neft-qaz və elektrik enerjisi sektorları üzrə prioritetlər və strateji məqsədlərlə bağlı müzakirələr aparılıb.

# Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı təsdiqlənib

2018–2020-ci illərdə Azərbaycanda rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı təsdiq olunub.

Prezident İlham Əliyev sentyabrın 26-da "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Sərəncam imzalayıb.

"2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın strateji məqsədi vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin xeyli genişlənməsi, nağd dövriyyənin həcminin minimuma endirilməsi və nəticədə bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsidir.

Rəqəmsal ödənişlərin tətbiqinin və istifadəsinin genişləndirilməsi iqtisadi dövriyyələri



şəffaflaşdırmaqla, nağd pulla bağlı xərclərin, bank və müəssisələrin əməliyyat xərclərinin azalmasına gətirib çıxaracaq ki, bu da öz növbəsində, vergi bazasının, habelə əhali və müəssisələrin maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsinə, bank sektorunun kreditləşmə və investisiya imkanlarının gücləndirilməsinə və son nəticədə iqtisadi artıma təkan verəcək.

Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə rəqəmsal ödənişlərin genişləndirilməsi ilə bağlı nəzərdə tutulan tədbirlərin icrası və müəyyən olunmuş icra göstəricilərinə nail olmaq məqsədilə hazırlanıb.

Sərəncama əsasən, Mərkəzi Banka Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirmək, tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək tapşırılıb.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinq və qiymətləndirilməsi isə Mərkəzi Bankın sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçiriləcək.

# Elmin Mirzəcanzadə zirvəsi



...Coşqun və uğurlu elmi-pedaqoji fəaliyyəti, cəsarətli və orijinal elmi ideyaları və onları gerçəkləşdirmək istedadı, mexanika və neft-qaz yataqlarının işlənilməsi sahəsində dünya praktikasında ilk dəfə təklif etdiyi qanunlar, metodlar və sistemli analizləri ilə ölkəmizdən uzaqlarda da böyük şöhrət qazanmış akademik Azad Xəlil oğlu Mirzəcanzadə yaddaşlarda Azərbaycan elminin fəxri, onun ən parlaq simalarından biri kimi yaşayır.

1957-ci ildə Azad Mirzəcanzadə fenomenal nəzəriyyə sayılan özlü-plastik mayelərin hərəkətinə həsr olunmuş doktorluq dissertasiyasını müdafiə edərkən məşhur akademik Aleksey Antonoviç İlyuşin demişdir: "Mən bu işdən daha çox faydalandım, nəinki Mirzəcanzadə məndən - özünün elmi rəhbərindən. Müəllif neft ədəbiyyatında ilk dəfə olaraq, özlü-plastik mayelər hidrodinamikası əsərini yaratmışdır".

"Neft Daşları" yatağının elmi əsaslarla işlənməsində akademik A.Mirzəcanzadənin özlü-plastik mayelərin hərəkətinə həsr olunmuş tədqiqatlarının xüsusi əhəmiyyəti həmişə qeyd edilmişdir. Bizim Azad müəllimlə təxminən altmış il bundan qabaq Neft Daşlarında başlanmış, illərin sınağından çıxmış dostluğumuz və əməkdaşlığımız isə bu böyük alimin vəfatınadək davam etmişdir.

Ümumiyyətlə, akademik A.X.Mirzəcanzadənin çoxşaxəli tədqiqatları neft sənayesinin ən mürəkkəb problemlərini, o cümlədən neft və qaz yataqlarının istilik rejimi, qazma məhlullarının dinamikası, neft və qaz quyularının qazılması prosesində mürəkkəbləşmələrin hidrodinamiki səbəbləri, neft və qaz yataqlarının hidrotermik tədqiqatları, dərində yatan neft yataqlarının işlənməsinin xüsusiyyətləri, təzyiqi doyma təzyiqindən aşağı olan yataqların işlənməsi, neft hasilatı polimerlərinin tədqiqi, neft hasilatı proseslərində və qazın nəqlində səmərəliliyin yüksəldilməsinin metodları kimi məsələləri əhatə etmişdir.

Belə bir faktı da qeyd etmək çox xoşdur ki, akademik Mirzəcanzadənin tədqiqatları Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin inkişafında xüsusi rol oynamışdır. 1990-cı ildən başlayaraq, Mirzəcanzadənin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Dövlət Neft Akademiyasının nəzdindəki "Neftin, qazın geotexnoloji problemləri və kimya" Elmi-Tədqiqat İnstitutunda Dövlət Neft Şirkətinin rastlaşdığı bir sıra problemlərin həllinə yönəldilmiş tədqiqatlar aparılmışdır.

Onun mühüm elmi-təcrübi və istehsalat əhəmiyyəti olan tədqiqatlarından biri dəniz neft-qaz yataqlarının işlənməsi prosesinin idarə olunmasının müasir üsullarına həsr edilmişdir. A.Mirzəcanzadə çətinliklə çıxarıla bilən karbohidrogen ehtiyatlarının işlənməsinin dinamiki təhlilinin əsasını yaratmışdır. Alınmış nəticələrin sənaye sınaqları ilk dəfə olaraq Azərbaycanın dəniz neft yataqlarında müvəffəqiyyətlə keçirilmişdir. Bunun da nəticəsində "Dəniz neft, qaz və qaz-kondensat yataqlarının işlənməsində texnoloji proseslərin təhlili üzrə Metodiki Rəhbərlik" və "Dəniz neft, qaz və qaz-kondensat yataqlarının işlənməsinin layihələndirilməsi və təhlili üzrə Müvəqqəti Metodiki Rəhbərlik" kimi mühüm sənədlər meydana gəlmişdir.

Azərbaycanda neft və qazçıxarmada nanotexnologiyanın yaradılması ideyası akademik Azad Mirzəcanzadəyə məxsusdur.

2010-cu ilin sentyabrında UNESCO-nun Fransa paytaxtındakı mənzil-qərargahı neft sənayesində nanotexnologiyaların işlənib hazırlanması və tətbiqi sahəsində nailiyyətlərinə görə Azərbaycan



Dövlət Neft Şirkətinin bir qrup mütəxəssisinin bu nüfuzlu beynəlxalq təşkilatın fəxri medalı ilə təltif edildiyini bildirdi. Üzərində UNESCO-nun emblemi və "Nanoelmin və nanotexnologiyaların inkişafında xidmətlərinə görə" sözləri həkk olunmuş bu medala layiq görülənlərin siyahısı akademik A.X.Mirzəcanzadənin adı ilə başlanırdı. Bu, böyük alimin və mütəfəkkirin elmi irsinin onun ölümündən sonra da beynəlxalq elmi ictimaiyyət və Azərbaycan neftçiləri tərəfindən yüksək qiymətləndirilməsinin daha bir parlaq təzahürü oldu.

Yalnız bir məqalə, yaxud bir məruzə çərçivəsində A.X.Mirzəcanzadə kimi qüdrətli bir elm fədaisinin gördüyü işləri və yazdığı əsərləri müfəssəl dəyərləndirmək mümkün deyil. Lakin qətiyyətlə demək olar ki, neft və qaz sahəsində onun tədqiqatları və əldə etdiyi nəticələr son dərəcə məhsuldar çalışan və ən başlıcası, elmi araşdırmalarının istiqamətini düzgün müəyyən edən bir alimin zəkasının məhsuludur. A.X.Mirzəcanzadənin müxtəlif illərdə Bakıda, Moskvada və xarici ölkələrdə nəşr edilmiş əsərləri - "Neft və qaz yataqlarının işlənməsi və istismarı", "İxtisasa giriş", "Neft-mədən işində rəqsi hərəkətin nəzəriyyəsi", "Fiziki proseslərin mexanikası", "Özlü-plastik mayelərin qeyri-stasionar hərəkəti", "Neft və qaz laylarının fizikası", "Yeraltı hidravlika", "Riyazi mozaika", "Təhsilin humanitarlaşdırılması barəsində etüdlər", "Azərbaycanın neft konsepsiyası etüdləri", "Layların neftverimi proseslərinin diakoptikası", "Neft yataqlarının işlənməsi, neft və neft məhsullarının nəqli proseslərinin sistemli analizi", "Dəniz neft-qaz yataqlarının işlənməsi fraqmentləri", "Neftçıxarmada dinamiki proseslər", "XXI əsrə aparan yol", digər dərslik, monoqrafiya və elmi-fəlsəfi kitabları öz müəllifinə böyük şöhrət qazandırmışdır.

Sovet mexanika məktəbinin sanballı nümayəndələrindən biri - akademik Qriqori İsaakoviç Barenblatt akademik Azad Mirzəcanzadəyə məktublarının birində yazırdı: "Əziz Azad! Mən həmişə Sizin parlaq və çoxşaxəli - əsl milli və eyni zamanda, ümumbəşəri istedadınıza heyranam. Bizi ümumi işimiz yaxınlaşdırdı, lakin dərin elmi təəssüratla yanaşı, dahi xalqınızın musiqisini mənə sevdirdiyinizə görə Sizə borcluyam".

Akademik Azad Mirzəcanzadənin elmi irsi insanlara, neft elmi və təcrübəsinə hələ uzun illər xidmət edəcək, öz şöhrətini və parlaqlığını heç vaxt itirməyəcək. Əslində, bu irs alimin özünə və vətəni Azərbaycanın şərəfinə ucaltdığı möhtəşəm bir abidədir.

Bu böyük alim və unudulmaz insan özünün "Təhsilin humanitarlaşdırılması barəsində etüdlər" kitabında yazırdı: "Zaman bizim hamımızdan vicdanla işləməyi tələb edir... Bütün elmlər insanla ölçülməlidir".

Akademik Azad Mirzəcanzadə, onun elmi irsi nəinki Azərbaycan, həmçinin dünya elmi üçün böyük ölçü və çox yüksək səviyyədir.

**akademik**
**Xoşbəxt YUSİFZADƏ,**
**Azərbaycan Respublikası**
**Dövlət Neft Şirkətinin birinci**
**vitse-prezidenti, "Azərbaycan",**
**28 sentyabr 2013-cü il**

# ZAMAN ADAMI

***Məndə sığar iki cahan,***
***Mən bu cahana sığmazam.***
***Kövhəri laməkan mənəm,***
***Kövnü məkana sığmazam!***
***İmaməddin Nəsimi***

***Azad Mirzəcanzadə! Kəskin və ədalətli tənqidindən həmişə utandığımız və və utandığımız qədər də nazını çəkməyə hər an hazır olduğumuz nəhəng insan! O, neft idi. Amma təkcə qara qızıl deyildi.*** O, Azərbaycan idi. Azərbaycanın dünyaya çıxışı idi. Zamana yaraşıq, elmlər mərkəzində nur saçan günəş idi. Ünsiyyətdə enerji mübadiləsini hiss etdiyimiz qida mənbəyimiz idi.

Leonardo Da Vinçiyə görə, "Elm sərkərdədir, praktika əsgərlər". Elm ordumuzun baş sərkərdəsini itirdik. Min illərdən axan şəlaləmizi, özünü oda atan pərvanəni, dəryaya baş vurub dürləri bizə bəxş edən dalğıcı itirdik. Son mənzilə yola saldıq. Bəlkə, mənzil elə burdadır. Ora azadlıqdır. Düzdür, ora artıq AZADlıqdır.

Görkəmli alman filosofu Artur Şopenhauer deyib: "Dahi alimlər məsələni qoyur, istedadlı alimlər isə onu həll edir". Minlərlə istedadlı alimin nəticələrinin kotüyündə, məhz Azad müəllim dahiliyi dayanıb.

Artıq dünya qəbul edib ki, ən qiymətli sərvət insandır. Azad Mirzəcanzadə amilinə görə, Azərbaycan dünya tərəzisində çəkişsini xeyli artıran ölkələrdən olub. İnsanların xasiyyətlərindən tutmuş, kosmik qüvvələrin iqtisadi proseslərə təsirinədək olan mövzuları incələyir, elmimizə bayraqdarlıq edirdi. Cəmiyyətin nə qədər suallarını çözməyə qadir olan universal beyin idi. Amma mürəkkəb nəzəriyyələri səmimi sadəlikdən doğurdu. Bir gün güzgü qarşısında dayanan Azad müəllim sevincək deyir: "Mən necə xoşbəxtəm – anama oxşayıram".

İsgəndər Tağıyevdən eşitdim ki, 4 rəqəminin simvolikalarından biri belədir. Hind fəlsəfəsinə görə, 4 tip təfəkkürlü insan var:

**1. Özünü düşünən;**
**2. Ailəsini düşünən;**
**3. Ölkəsini düşünən;**
**4. Bəşəriyyəti düşünən.**

Azərbaycan təhsilinin yetirməsi kimi sistemin gücünü göstərən, bəşəri təfəkkürlü insan ruhu oxşayan kəlamları ilə dünyamızı rəngləyir, təmizləyir, bəzəyirdi. Daim həyatımıza yenilik gətirərək, bizi təəccübləndirməkdən zövq alan Azad müəlim 3 p – "постепенно, последовательно, постоенно" (akademik Ziyad Səmədzadənin tərcüməsində 3 d- dama-dama, davamlı, daimi), "qlobal düşün, lokal hərəkət et" kimi fikirləri ilə bizə yaşam şüarları bəxş edirdi. Elmin keşikçisi, söz xəzinəsinin paylayıcısı, mübarizlik rəmzi idi.

İnsan düşünür: xoşbəxtlik nədədir?! Özümüzü xoşbəxt saya bilərik ki, belə təfəkkürlü insanla ünsiyyətdə olmuşuq.

O, məsələyə qeyri-ənənəvi baxış tərzini, yazını bəzəməyi öyrədirdi. Generalın adyutantı zabit olur ki, onu başa düşsün. Hirslənirdi. Hərdən onu başa düşmürdük. Hamımız dünya yükünü çəkirik. O isə hamının yükünü çəkirdi.

Karfageni lərzəyə salan, dövlət hesabına dəfn olunan Roma sərkərdəsi Stipionun "Əsas pul yox, pulu olanlar arasında hörmətdir" məntiqinin XXI əsrdə də doğruluğunu təsdiqləyərək, cəmiyyəti yeni keyfiyyət mərhələsinə qaldıran gerçək adam...

Onda həm müdrik yaşlı, həm də kövrək uşaq düalizmi var idi.

Namizədlik dissertasiyam əsasında kitab çap etdirmək istədim. Azad müəllimin kitabına baxdım, utandım, çıxartdırmadım.

Peyğəmbərimiz: "Elm Çindədirsə, ora gedin" buyurduğundan hər gün Çinə gedib-gəlirdim. Müqəddəs "Qurani-Kərim"lə yanaşı, Azad Mirzəcanzadənin "О пути XXI век" kitabını oxuyurdum. Ozümdən soruşurdum: Onun bizi sevdiyi qədər biz də onu sevə bildikmi?! Onun bizi dərk etdiyi qədər biz də onu dərk etdikmi"?! "Петербургский очерк»də yazdım:Azad Mirzəcanzadənin "120 dahi filosof" kitabına düşməməsində biz də günahkarıq.

Azad müəllim müstəvisində qüvvədən düşən titullar, devizlər var. Məsələn: "Əvəzolunmaz insan yoxdur", "Subay üçün ağlayan yoxdur".

Doymadıq şüarı ilə bir dəfə də rəhbərlik etdiyi konfransda ola bilsəydim, deyirəm. Ondan bir az da götürsəydim, deyirəm.

İndi hansı elm dağına söykənək? Sualımızı kimə



ünvanlayaq? Kimdən qiymət gözləyək?...

"Bir qalanın sirri"ndəki Elşən Azad müəllimin kinoda inikası, xilas etdiyi Mətanətsə Azərbaycan elmidir.

"Min bir gecə" nağılındakı bütün elmlərə açarı olan və həyatımıza qonaq gəlmiş qəhrəman...

Ömər Xəyyama görə, insanın hər əzasının mahiyyəti olduğu kimi, xalın da mənası var. Xal insan anadan olanda göydəki ulduzun təsviridir. O, elmimizin, elimizin xalı idi.

Heyf! Uğurları artan Azərbaycanın qonaq qarşısına çıxmalı şəxsiyyətlərindən getdi. Haqq səsimizi dünyaya çatdıra bilən elçilərimizdən getdi. Onun vəfatı ilə Azərbaycan elmi yetim qalıb, - ifadəsi ilə sözlərimi tamamlamıram. Peyğəmbər Əleyhissalamın vəfatında dedilər: "Səbr gözəldir, amma sənin ayrılığına dözmək olmur!"

Dörd pozitiv not gətirirəm:

Birincisi: Azad müəllimin qayğısını çəkən dövlətimiz, son günlərini rahat edən həkimlərimiz var. Elm səltənədində Ələsgər Lütfi-zadəmiz var.

İkincisi: Azad müəllimin adını daşıyacaq, həyatını öyrənib nəticə çıxaracaq tələbələr, qəlbimizdə qurulmuş heykəli var.

Üçüncüsü: Dahi şəxsiyyət təkcə o deyil ki, sağlığında çox şey etsin. Dahi şəxsiyyət odur ki, qoyduğu istiqamətlər ondan sonra yaşasın. Azad müəllim öz zərrələriylə hər birimizin həm qəlbində, həm də zehnində yaşayır. Rəvayətə görə, Makedoniyalı İsgəndər son səfərindən qabaq xəzinəni orduya paylayır. "Özünə nə saxlayırsan?" sualına - "özümə ümid saxlayıram", - deyir. Azad müəllim gedərkən özünə Azərbaycanlıları elm zirvəsində görmək ümidini saxladı. İsaak Nyuton dedi: "Mən uğurlarıma keçmiş fiziklərin çiyinləri üstə gəlmişəm". Vicdanla soraq: Azad müəllimin çiyinləri üstə qalxa biləni-miz varmı?

Dördüncüsü: hinduların inamına görə, insan dünyasını dəyişəndə "ölüm" adlanan qapıdan keçir və Böyük Ovçu ondan soruşur: "Həyatı gözəlləşdirə bildinmi?" Düşünürəm: Nəinki, bu dünya, cənnət də yeni siması ilə daha da gözəlləşdi.

Sonda fikirləşirəm:Niyə AZADlığa Musiqili Komediya Teatrından gedir?

Yubileyi də orada keçirilmişdi. Çünki o, musiqini çox sevir, dünyamıza isə komediya kimi baxırdı.

Başlıqda yazdığım kimi, Azad müəllimin keçmişin və ya gələcəyin adamı olması isə artıq bizdən asılıdır. Yox, onun yaddaşımıza ehtiyacı yoxdur. O, tarixdir. Bəşəri olmağımız üçün onun bizə yox, bizim onun imtahanlarına ehtiyacımız var. Boşalmamaq ehtiyacımız var. Gözəl olaq ki, o keçmiş xatirəsi yox, gələcəkdən gəlib bizi gözəlləşdirənlərdən olsun.

Vida sözlərini qələmə aldım.

Yaşar Qarayevi də xatırladım.

Bu xitabımı üç gecə yazdım. Yazımı gözləyən, səbrinə heyran olduğum makinaçı Zərifə xanımla telefonla dialoqdan:

E.A.: - Krantı bağlaya bilmirəm.

Zərifə xanım: - Evinizi su basır?

E.S.: - Yox. Azad müəllimin bulağı tükənmir! Elə hey yazıram.

Amma, bağışlayın, mən ancaq aşağıda görünənlərdən yaza bildim, ya da bilmədim. Düzünü o bilər. Bəlkə də, onun yaşadığını sübut etmək istədim.

Birdən ayıldım. Aman! Mən bu sözləri kimin üçün yazdım?! Rəsmindən nur süzülən üçün – canını bizə bəxş edən Azad Mirzə üçün yazdım. Onun ruhu qarşısında elmimizi qoruyub inkişaf etdirməyə and içirik!

Allahdan müəllimimizə rəhmət diləyək!

**Tələbəsi Elşad (2006-cı il)**

**(i.e.n. Elşad Ziyad oğlu Səmədzadə, Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini)**

Azad Mirzəcanzadə - 90

## Akademik Azad Mirzəcanzadənin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci ilin sentyabr ayında Azərbaycanın görkəmli alimi, Dövlət mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm və texnika xadimi, texnika elmləri doktoru, professor Azad Xəlil oğlu Mirzəcanzadənin anadan olmasının 90 illiyi tamam olur.

Tətbiqi mexanika və neft-mədən işləri üzrə bir sıra yeni istiqamətlərin banisi, zəngin elmi irsə malik akademik Azad Mirzəcanzadə neft-qaz sənayesinin aktual problemlərinin həllinə dair çox sayda qiymətli tədqiqatları ilə Azərbaycan elminə mühüm nailiyyətlər qazandırmış və böyük şöhrət gətirmişdir. Azad Mirzəcanzadənin rəhbərliyi və bilavasitə iştirakı ilə dəniz neft, qaz-kondensat yataqlarının işlənilməsinin fundamental-nəzəri əhəmiyyətli metodları hazırlanıb tətbiq edilmişdir. Azərbaycan elminin dünya elm məkanına inteqrasiyasının sürətləndirilməsində Azad Mirzəcanzadənin təqdirəlayiq xidmətləri vardır. Alim Azərbaycan iqtisadiyyatının müasir mərhələdə dinamik inkişafı üçün zəruri olan yüksək ixtisaslı elmi kadr resurslarının yaradılmasının fəal iştirakçılarından idi. Azad Mirzəcanzadə elmi məktəbinin yetirmələri ölkəmizdə və onun hüdudlarından kənarda neft sənayesinin ən müxtəlif sahələrində uğurla çalışırlar. Elmlə istehsalat arasında sıx əlaqə qurmağa müvəffəq olmuş alimin araşdırmalarının nəticələrindən mötəbər elmi mərkəzlər bu gün də geniş istifadə etməkdədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə elmin inkişafı, təşkili və elmi kadr potensialının formalaşdırılması işinə dəyərli töhfələr vermiş akademik Azad Mirzəcanzadənin 90 illiyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birgə akademik Azad Mirzəcanzadənin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 6 iyul 2018-ci il**

# AKADEMİK AZAD MİRZƏCANZADƏ: "ARZUM AZƏRBAYCANI DÜNYANIN İNTELLEKT BAZARINDA LAYİQLİ YERDƏ GÖRMƏKDİR"



***Akademik Azad Mirzəcanzadənin 90 illik yubileyi ilə əlaqədar fikirləşdim ki, yeni bir yazı hazırlayım. Amma 12 il əvvəl onun haqqında yazdıqlarımı bir də nəzərdən keçirdim və belə hesab etdim ki, onun haqqında bir böyük alim, böyük vətəndaş, böyük şəxsiyyət kimi dediklərim bu gün də öz aktuallığını, gücünü saxlayır.***

***Akademik Azad Mirzəcanzadə Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi böyük alimlərdən biridir. Artıq dünyanın nüfuzlu şirkətlərindən birinə çevrilmiş Dövlət Neft Şirkətinə, onun rəhbərliyinə təşəkkür edirəm ki, akademik Azad Mirzəcanzadənin yubileyi ilə əlaqədar olaraq böyük bir tədbir keçirir. Çünki Azərbaycanı neft diyarı kimi dünyada tanıdan neftçilərin, alimlərin içərisində Azad Mirzəcanzadənin də kifayət qədər xidmətləri olub.***



Xəzərin sahilində

Azad Mirzəcanzadə həmişə ürəklərdə yaşayacaq alimdir. Elmin, cəmiyyətin inkişafına və həyatın müxtəlif sahələrinə təsirinin nəticələri mühümdür. Cəmiyyətin bütün tarixi mərhələlərində elm inkişafın ən mühüm amili olmuş, tərəqqi meyarına, mənəvi həyatımızın müstəqil amilinə çevrilmişdir. Qədim Şərqdə toplanan biliklər elmin ilkin şərtlərinin hazırlanmasına, sonrakı inkişafda isə onun bir müstəqil sahə kimi formalaşmasına, cəmiyyətin zənginləşməsi prosesinə təkan vermişdir. Əsrlər ötdükcə elmi biliklər mifik təfəkkürü sarsıtmış, elmin artan gücü ilk elmi inqilablarla nəticələnmişdir. Zaman keçdikcə sosial sifarişin əsas təminatçısı olan elmin ayrı-ayrı məmləkətlərin, xalqların deyil, bütün bəşəriyyətin ümumi sərvəti kimi çıxış etməsi prosesi qanunauyğun hal almışdır.

Azərbaycanda da elmin qədim tarixi vardır. İslam intibahının qərarlaşdığı orta əsrlərdə burada elmin inkişafını xarakterizə edən çox zəngin faktlar məlumdur. Min il öncə yaşamış Azərbaycan filosofu Əbülhəsən Bəhmənyarın "Səbəb və nəticə haqqında" təliminin Müsəlman şərqində fəlsəfi-elmi fikrin inkişafında böyük rolu olmuşdur. Fazil Fəridətdin Şirvani, Xaqani, Fələki riyaziyyatla məşğul olmuş, Nizami, Nəsimi, Füzuli təbiətşünaslığın bir çox məsələlərinin əsaslı şərhini vermişlər. Nəsirəddin Tusi XIII əsrdə Marağa rəsədxanasını tikdirmiş, ulduzların dəqiq qlobusunu tərtib etmişdir. Etiraf edək ki, qədim elm tariximiz, onun o dövr üçün ensiklopedik biliyə malik olan mübariz şəxsiyyətlərinin xidmətləri zəif öyrənilmişdir. Bu boşluğu doldurmaq sahəsində cəsarətli addımlar atılmalıdır. XIX əsrdə A.A.Bakıxanovun, M.F.Axundovun əsərləri milli-elmi-fəlsəfi dünyagörüşünün yeni mərhələsi olmuşdur. Lakin XX əsrdən başlayaraq Azərbaycan elmi həm tarixi inkişaf nəticəsində, həm də ilk növbədə milli neft faktoru ilə bağlı olaraq daha yüksək status almış, yeni keyfiyyət dəyişiklikləri ilə müşayiət olunmuşdur. Bu əsrdə Azərbaycanda elmin əsas sahələri üzrə Elmlər Akademiyası yaradılmış, sahə elmi-tədqiqat institutları, ali məktəblər, elmi mərkəzlər intişar tapmış, alimlərimizin nəzəri və eksperimental xarakterli bir sıra tədqiqatları elmi zənginləşdirmişdir. Neft sənayesindəki istehsalat - elmi nailiyyətlərinə görə isə neçə-neçə onilliklər əvvəl Azərbaycan "Neft Akademiyası" kimi şöhrət qazanmışdır.

Elm sahəsində əvəzsiz xidmətləri olan, ensiklopedik bilikli Azad Xəlil oğlu Mirzəcanzadə Azərbaycanın XX əsrdə yetişdirdiyi ən nadir zəka sahiblərindən biridir. Onun fəaliyyət dairəsi çox geniş və dinamikdir, hətta bir yazıda bu haqda ətraflı danışmaq qeyri-mümkündür. Əlbəttə, o, ilk növbədə Azərbaycanın professional neftçi alimidir. Azad müəllimin tətbiqi mexanika, neft-mədən işləri, neft-qazçıxarma istehsalının texnologiyası, neft-qaz yataqlarının işlənməsi sahəsindəki elmi tədqiqatları tanınmış alim və mütəxəssislərin birmənalı rəyinə görə dünya elminə mühüm töhfə sayılır. Cəsarətlə demək olar ki, neft ehtiyatları və istehsalına görə dünyada mühüm yerlərdən birini tutmuş keçmiş Sovetlər İttifaqında neft elminin formalaşması və inkişafında Azərbaycan alimlərinin, xüsusilə Azad Mirzəcanzadənin xidmətləri çox böyükdür. Özünün yarım əsrdən çox elmi fəaliyyəti ərzində alimin digər, xüsusilə yeni elm sahələrindəki nailiyyətləri düşünən insanları heyran edir. O, təhsilə cəmiyyətin güclü faktoru kimi baxıb və onun reallaşması üçün intensiv fəaliyyət göstərib.

Hər bir hadisənin ümumi və xüsusi komponentlərinə nüfuz etmək qabiliyyəti, prosesləri fiziki və riyazi anlamda qavrama xüsusiyyəti alimin təfəkkür tərzinə, istedad və zəkasına xas olan cəhətlərdən olmuşdur. Müşahidədə kiçik detalların əhəmiyyətinə varmaq, onların yarada biləcəyi effektləri müəyyən etmək, proseslərə fəlsəfi yanaşmaq müdrik alim-filosofun fəaliyyətinin səciyyəvi xüsusiyyətlərindəndir.

Azad müəllim geniş analitik təfəkkürə, fenomenal yaddaşa və biliyə, ensiklopedik fitri istedada malik olan nadir alimlərdəndir. Onunla ünsiyyətdə olmaq müsahibindən nizamlı davranış, ciddi hazırlıq tələb edib. Azad müəllimdə biliyin, intellektin diapozonu o qədər geniş idi ki, istər-istəməz onun qüdrəti qarşısında özündən razılar da yumşalırdılar.

İndiki texniki inqilab şəraitində formalaşan vahid elm-texnika-istehsal sistemində elm öndə gedir. Elmlə mədəniyyət istedadla yanaşı, ciddi məsuliyyət tələb edir. Alimin elm və xalq qarşısında xidmətləri bitməz bir siyahını xatırladır. 70 monoqrafiya, dərslik və dərs vəsaiti, 400-dən çox elmi məqalə, 50-dən çox ixtira, 20-dən çox beynəlxalq seminar və konfransa rəhbərlik, 300-dən artıq elmlər namizədi, 100-dən çox elmlər doktorunun hazırlanması... İnsanın fiziki imkanlarının məhdudluğuna istinad edən bəzi bədxahlar bir nəfər tərəfindən bu qədər alimin yetişdirilməsinə şübhə ilə yanaşırdılar. Lakin diqqət etdikdə gördülər ki, əsas iş qayəsi səxavətlə ideyalar vermək olan alimin qazma, hasilat, yataqların işlənməsi, maye və qazların mexanikası sahəsində böyük elmi-təcrübi potensialından daha çoxsaylı tədqiqatçıya pay düşür. Həqiqətdə A.X.Mirzəcanzadə bundan da artıq alimlərin yetişməsində yardımçı olmuşdur.Onun elmin bir çox sahələri üzrə çalışan mütəxəssislərə, habelə gənclərə verdiyi tövsiyələr, oxuduğu maraqlı məruzələr bu baxımdan əvəzsiz bir xidmətdir.

Azad müəllim çox ağır və məsuliyyətli missiyanı - Elm və Texnika Komitəsinə, Ali Attestasiya Komitəsinə rəhbərliyi prinsipial iş metodu ilə, yüksək tələbkarlıqla həyata keçirib. O, daim axtarışda olub. Biganəlik ona yaddır. Azad müəllim həm də sərt adam kimi tanınmışdır, bu da təbiidir. Məqsədə müvəffəq olmaq məhz sərtlik, polad intizam, prinsipiallıq, dərin zəka vəhdətində mümkündür. Dövlətə, millətə təmənnasız xidmət Mirzəcanzadə elminin leytmotivini təşkil edir. Mədən sularından səmərəli istifadə etmək, neft sənayesini tullantısız sənayeyə çevirmək, daimi səmərəlilik yaratmaq onun son dərəcə keyfiyyətli iş üsullarından xəbər verib. Bu xüsusiyyət onun çalışdığı bütün sahələrdə öz əksini tapıb. Rəhbərlik etdiyi Elm və Texnika Komitəsi büdcədən maliyyələşən bir təşkilat olsa da, yarandığı gündən dövlətə onun fəaliyyəti üçün ayrılmış maliyyə təsisatlarından bir neçə dəfə artıq vəsait qaytarmışdır.Lakin bütün bunlara baxmayaraq, Azad müəllim özünü xalqına əbədi borclu sanıb. Azad Mirzəcanzadə müstəqil Azərbaycan Respublikasının inkişafı üçün son dərəcə vacib olan Ali Attestasiya Komissiyasına rəhbərlik edib və mənə elə gəlir ki, onun fəaliyyətinin ən çətin, ən gərgin, əsəbi vaxtları da bu illərə düşüb. Çünki hələ də keyfiyyətsiz işlərə görə elmi ad almaq niyyətində olanlara havadarlıq etmək istəyənlər var. Azad müəllim bəzən adi etik qaydaları gözləməyən bu kimi "elm adamları" ilə ciddi mübarizə aparmağa məcbur olub.

Hər bir materialda mühümü aramaq, duymaq, sonra isə onun yetərincə şərhini vermək lazımdır. Azad müəllim tədqiqatçılara, mütəxəssislərə, xüsusilə idarəetmə strukturlarında çalışanlara Roma klubunun "Qlobal düşün, lokal qərarlar qəbul et" prinsipinə uyğun düşünmə tərzini tövsiyə edib. Bu, daim millətinin gələcəyini düşünən alim-vətəndaşın narahatlığından irəli gəlib. Narahatdır ona görə ki, "Bazar hər şeyi həll edir" fikrini fetişləşdirənlər iqtisadiyyatımıza güclü dağıdıcı zərbə vururlar. Narahatdır ona görə ki, keçid dövründə dövlətin tənzimləyici funksiyasını hələ də başa düşməyən məmurlar az deyildir. Narahatdır ona görə ki, inkişaf imkanlarından səmərəli istifadə olunmur, elmi qayğı lazımi səviyyədə deyildir.

Bu və ya digər elmin predmetini düzgün müəyyən etmək çox çətin məsələdir. A.X. Mirzəcanzadə ilk dəfə olaraq Azərbaycanın neft sənayesinin keçid dövründəki istiqamətləri haqqında konseptual mülahizələr söyləmiş, perspektivləri riyazi modellər əsasında müəyyən etmiş, fundamental ideyalar irəli sürmüşdür. Alim böyük Türk Dünyasının artan qüdrətini, gerçəkləşən birliyini sezərək turkdilli dövlətlərin və yarımdövlətlərin neft-qaz ehtiyatlarını, onların müvafiq sahədəki potensial imkanlarını araşdırmış, perspektivlərin elmi proqnozunu vermişdir. Əzəli türk torpaqları Sibir, Tatarıstan və Başqırdıstanın neft-qaz yataqlarının işlənməsi və istismarı, habelə burada çıxarılan neftin spesifik - "şıltaq" xüsusiyyətləri ilə bağlı problemlər alimin elmi yaradıcılığında geniş yer almışdır. A.X.Mirzəcanzadə Xəzərdə hasil edilən neft-qaz və kondensat yataqlarının işlənməsi, istismarının ən ümdə problemlərinə dair fundamental əsərlərin müəllifi kimi yaşayacaq.

Böyük alimlər qeyri-adiliyi ilə fərqlənirlər. Mən neçə illər boyu bu nurlu sima ilə təmasda olmuşam, onun nə qədər sərt və eyni zamanda, daha çox humanist olduğunu yaxşı bilirdim. Azad müəllimlə apardığım söhbətlərdə dəfələrlə müşahidə etmişəm ki, onun musiqimizə, folklorumuza baxışları yüksək milli kaloriti ilə fərqlənir. Tez-tez xalq mahnılarımızı zümzümə etməsinin, şeirlər söyləməsinin, musiqimizin əsrarəngiz gözəlliklərindən söhbət açmasının şahidi olmuşam. Üzeyir bəyin, Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin musiqisini, simfonik əsərlərini dinləməkdən doymurdu. Fəxrlə deyirəm ki, biz istedadlı xalqıq və daha da möhtəşəm olmağa layiqik. Baxın, qərbin 300 ildə keçdiyi klassik musiqi sənəti yolunu böyük Üzeyir bəy "Leyli və Məcnun"dan "Koroğlu" operasına qədər keçmişdir. Q.Qarayevin simfoniyalarının dünya musiqisində xüsusi yeri vardır. Biz dünya mədəniyyətinə böyük dühalar - Nizami, Nəsimi, Füzuli kimi şair-filosoflar, Əbülhəsən Bəhmənyar, Nəsrəddin Tusi kimi alimlər bəxş etmişik. Biz Sabirin, Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin, Səməd Vurğunun həmvətənlərimiz - Azərbaycan şairləri olmaqlarından qürur duymalıyıq.

Azad müəllim istedadlı gənclərlə əməkdaşlıq etməkdən usanmır, onlara köməyini əsirgəmirdi. Bilirdi ki, Üzeyir bəy məktəbini davam etdirmədən, Nəsimi sözünü fəth etmədən, Füzuli sevgisini duymadan, Hüseyn Cavid fəlsəfəsini anlamadan, Əhməd Cavad vətənpərvərliyini bilmədən, Q.Qarayevin musiqi dünyasını dərk etmədən, Müşfiq şeirinin ruhunu sevmədən xalqın milli dirçəlişi, mədəni tərəqqisi mümkün deyildir.

Azad müəllim böyük vətəndaş olub. Xalqın maariflənməsində, əyalətlərdə ziyalılar nəslinin artırılmasında, elmin inkişaf etdirilməsində onun regional inkişaf konsepsiyası öz bəhrəsini verməkdədir. İndi respublika Ali Attestasiya Komissiyasının Gəncədə, Şəkidə, Lənkəranda, Naxçıvanda müdafiə şuraları fəaliyyət göstərir. Onun rəhbərliyi və şəxsi iştirakı ilə AAK sadalanan şəhərlərdə səyyar iclaslar keçirib. O, istəyib ki, Azərbaycanın regionları kompleks inkişaf etsin, bu proses tənzimlənsin, bölgələrimizdə yaşayan həmvətənlərin biliklərini zənginləşdirmək üçün elə yerlərdə də müvafiq şərait təmin olunsun, burada ziyalıların sayı artsın. Yerlərdə nə qədər çox zəka sahibi olarsa, mədəniyyətimiz, elmimiz də o qədər inkişaf tapar. Çox strateji əhəmiyyət kəsb edən problemin bu aspektdə qoyuluşu hökumət səviyyəsində məqsədli proqramların, konsepsiyalarının işlənməsini zəruri edir. Azad müəllim daim narahat və mübariz insan olub, biganəlik, bitərəflik, mövqesizlik ona yad olub.

Onun elmi fəaliyyət sahəsində mükafatları olduqca çoxdur. Onları saymağa ehtiyac yoxdur. Fəqət bu mükafatlar içərisində alimə bir çox ölkələrdə, məşhur elmi mərkəzlərdə verilən yüksək mükafatlar vətənpərvərliyinə, dərin istedadına, vətəndaş qeyrətinə, müdrikliyinə verilən müstəqil Azərbaycanın ən ali mükafatı - "İstiqlal" ordeni onun simasını daha dolğun əks etdirir.

Azad Xəlil oğlu Mirzəcanzadə XX əsrin ən böyük azərbaycanlı alimlərindən biridir. Alimin keçdiyi həyat yoluna, möhtəşəm elmi fəaliyyətinə diqqət etdikdə, onun heyrətamiz təcrübə və biliyinin miqyası, əzəməti göz önünə gəlir. Böyük alimlər həmişə vaxt qıtlığı ilə bağlı problemlərlə rastlaşırlar. Azad müəllim topladığı təcrübə sahəsində zaman amilindən də səmərəli istifadə etməyə həmişə müvəffəq olub. Böyük alim Azad müəllimin əziz xatirəsi həmişə ürəklərdə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Akademik Ziyad SƏMƏDZADƏ**

# Azərbaycanımız var olduqca «Azərbaycan»ımız da yaşayacaq



....Azərbaycan mətbuatından danışarkən 1918-ci ildə təsis edilən "Azərbaycan" qəzetinin adını çəkməmək, xatırlatmamaq mümkün deyil. 143 yaşlı Azərbaycan mətbuatının artıq 100 yaşına çatmış bu qəzeti, bu övladı hər zaman öz şərəfli və ləyaqətli, öyünüləcək, fəxr ediləcək keçmişi, tarixi, ənənəsi ilə seçilib, fərqlənib, imzalar içində imzası olub...

"Azərbaycan" qəzeti düz 100 il öncə - 1918-ci ildə, ilk müstəqil cümhuriyyətimizin, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) dövründə yaradılıb, araya-ərsəyə gətirilib. Bu gün də "Azərbaycan" qəzetinin çoxşaxəli və çoxsahəli fəaliyyəti oxucular tərəfindən böyük məmnunluqla qarşılanır. Bu qəzet ölkənin siyasi-ictimai, sosial-iqtisadi, elmi-mədəni həyatında baş verən hadisələri vaxtında və obyektiv şəkildə Azərbaycan cəmiyyətinə çatdırır. Xüsusilə də, son 25 il ərzində bu qəzet böyük inkişaf yolu keçib, Azərbaycan vətəndaşlarının sevimli qəzetinə çevrilib. "Azərbaycan" qəzeti ölkənin ictimai-siyasi həyatında baş verən hər bir hadisəyə daim düşünülmüş, həssas şəkildə və peşəkar səviyyədə reaksiya verib. Hər zaman Azərbaycan dövlətinin, Azərbaycan dövlətçiliyinin maraqları mövqeyindən çıxış edib....

"Azərbaycan" qəzetində çox dəyərli, nüfuzlu jurnalistlər komandası çalışır. Təbii ki, qəzetin bu qədər peşəkar səviyyədə özünü tanıtmasında, böyük nüfuz və hörmət qazanmasında xüsusi olaraq baş redaktor - Milli Məclisin deputatı, həmkarımız Bəxtiyar Sadıqovun rolu, əməyi, xidməti müstəsnadır. Məhz onun redaktorluq etdiyi bu illər ərzində "Azərbaycan" qəzeti öz adını, simasını qoruya, tarixi ənənəsinə uyğun şəkildə fəaliyyətini davam etdirə bilib. Odur ki, Bəxtiyar müəllim başda olmaqla, "Azərbaycan" qəzetinin bütün kollektivini, yaradıcı heyətini, bu qəzetin əsasını qoymuş böyük fikir adamlarının hamısını növbəti doğum günləri, 100 illik yubileyləri münasibətilə ürəkdən təbrik edir, dünyasını dəyişənlərə rəhmət diləyir, qalanlara can sağlığı, fəaliyyətlərində, işlərində, yaradıcılıqlarında növbəti nailiyyətlər arzulayıram. Qoy, qələm tutan əlləriniz var, qələminiz daim iti və kəsərli, yubileyiniz, şərəf tariximiz mübarək olsun! Azərbaycanımız var olduqca "Azərbaycan"ımız da yaşayacaqdır!

**akademik**
**Ziyad SƏMƏDZADƏ,**
**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri**

"İqtisadiyyat" qəzetinin redaksiya heyəti və əməkdaşları da təsisçimiz, akademik Ziyad Səmədzadənin bu təbriklərinə qoşulur, "Azərbaycan" qəzetinin kollektivinə daha neçə-neçə yubileylər qeyd etməyi arzulayır. Bu məqaləni tam şəkildə "www.iqtisadiyyat. com" internet səhifəmizdən oxuya bilərsiniz.

# Təbrik edirik!



Sentyabrın 19-da Azərbaycan Respublikasının neft sənayesi işçilərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasında neft sənayesi sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə təltif edilənlərin arasında Hüseynov Arif Güləhməd oğlu da vardır. İqtisad elmləri doktoru, professor Arif hüseynov "Tərəqqi" medalına layiq görülmüşdür. Bu münasibətlə Arif müəllimi ürəkdən təbrik edir, istehsalat, elmi və yaradıcı fəaliyyətində uğurlar diləyirik.

**"İQTİSADİYYAT"**

## Enerji Məsələlərini Tənzimləmə Agentliyi enerji təchizatına nəzarəti gücləndirib

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin regional bölmələri tərəfindən bu ilin yanvar-avqust ayları ərzində elektrik enerjisi ilə təchizatı sahəsində etibarlılığın, səmərəliliyin və dayanıqlılığın artırılması məqsədilə istehlakçıların elektrik təsərrüfatlarında 390 sayda texniki araşdırma aparılıb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, "Elektrik enerjisindən istifadə Qaydaları"nın tələblərinin pozulmasına görə aktlar tərtib edilib və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq göstərişlər verilib.

Agentliyin regional bölmələri tərəfindən, eyni zamanda, büdcədən maliyyələşən müəssisələrdə qazın nəqli, paylanması, istifadəsi və satışında, həmçinin sənaye və məişət qaz qurğularının, avadanlıqların, kəmərlərin və digər obyektlərin layihələndirilməsi və yenidən qurulmasında qazdan səmərəli istifadənin, qaz qurğularının etibarlı istismarının təmin edilməsinin, "Qazdan istifadə Qaydaları"nın və müvafiq sahəyə dair digər normativ hüquqi aktların tələblərinə əməl olunmasının vəziyyətinin araşdırılması məqsədilə cari ilin yanvar-avqust ayında 387 obyektdə yoxlama aparılıb.

Elektrik və istilik təsərrüfatı subyektlərində baş verə biləcək bədbəxt hadisələrin, o cümlədən qəza, qətl və yanğın hallarının qarşısının alınması məqsədilə bu sahədə çalışan əməkdaşların, təsərrüfata cavabdeh şəxslərin və təhlükəsizlik texnikası üzrə mühəndislərin əməyin mühafizəsi, texniki istismar, texniki təhlükəsizlik, yanğın təhlükəsizliyi qaydalarından biliyinin yoxlanılması da mühüm əhəmiyyət kəsb edir.

Bu məqsədlə bu ilin yanvar-avqust ayında 60 müəssisədə 122 nəfər elektrotexniki heyətin texniki biliklərinin qiymətləndirilməsi aparılıb.

## TAP-ın Yunanıstan və Albaniya marşrutunda boruların 97 faizi qaynaqlanıb



Azərbaycan təbii qazını Avropaya daşıyacaq "Trans-Adriatik" (TAP) boru kəmərinin Yunanıstan və Albaniya marşrutunda boruların 97 faizi qaynaq edilib.

Bu barədə AZƏRTAC-a eksklüziv açıqlamasında boru kəmərinin operatoru olan TAP AG şirkətinin kommunikasiya rəhbəri Lisa Givert deyib.

"TAP-ın 765 kilometrlik Yunanıstan və Albaniya hissəsinin 756 kilometri, yəni 98 faizində ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Bundan başqa, iki ölkədə boruların 97 faizi qaynaq olunub. Həmçinin, boruların təxminən 90 faizi xəndəyə endirilib", - deyə L.Givert əlavə edib.

Qeyd edək ki, TAP layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla, ümumilikdə, 77 faizdən çoxu icra olunub. Sentyabrın əvvəlinə TAP-ın Yunanıstandan keçəcək 550 kilometrlik hissəsində marşrut xətti üzrə 540 kilometr ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Təqribən 538 kilometr boru marşrut xətti boyunca düzülüb və qaynaq edilib. 504 kilometr boru torpağa basdırılıb və təxminən 430 kilometr ərazi bərpa olunub. TAP-ın Albaniyadan keçən 215 kilometrlik hissəsinin isə, demək olar ki, hamısı təmizlənib və qiymətləndirilib, həmçinin bütün borular marşrut xətti boyunca düzülüb. Boruların 205 kilometri qaynaqlanıb və onların təxminən 189 kilometri torpağa basdırılıb. Təqribən 145 kilometr ərazi bərpa olunaraq tamamilə əvvəlki vəziyyətinə gətirilib.

Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə hazırda biri Yunanıstanda - Kipoidə, digəri isə Albaniyada - Fierdə olmaqla, ümumilikdə, 2 kompressor stansiyasının, eləcə də Albaniyanın şərqindəki Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi aparılır. Kəmərin Adriatik dənizindən keçəcək 105 kilometrlik hissəsinin tikintisini reallaşdıran İtaliyanın "Saipem S.p.A" şirkətinin qarşıdakı aylarda mikrotunel üçün qazma işlərinə başlaması gözlənilir. Boru kəmərinin Adriatik dənizindən keçəcək 36 düymlük hissəsinin inşası 2019-cu ildə başa çatdırılacaq.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur və iyul ayının sonuna TAP-a 3,1 milyard avro sərf olunub.

Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

## Bu il Türkiyə Azərbaycandan 3,8 milyard kubmetrədək təbii qaz idxal edib

Cari ilin iyul ayında Türkiyə Azərbaycandan 595 milyon kubmetr təbii qaz idxal edib.

Bu barədə Türkiyənin Enerji Bazarını Tənzimləmə Təşkilatı (EPDK) məlumat yayıb. İyulda Azərbaycan Türkiyənin ən çox təbii qaz idxal etdiyi ölkələr sırasında Rusiya (2,3 milyard kubmetr) və İrandan (840 milyon kubmetr) sonra üçüncü olub.

Bu ilin yanvarında Türkiyə Azərbaycandan 594,15 milyon kubmetr, fevral ayında 536,61 milyon kubmetr, martda 591 milyon kubmetr, apreldə 292,04 milyon kubmetr, mayda 601 milyon kubmetr, iyunda 578 milyon kubmetr, iyulda isə 595 milyon kubmetr təbii qaz idxal edib.

Beləliklə, ilin ilk 7 ayında Azərbaycandan Türkiyəyə təqribən 3 milyard 789 milyon kubmetr qaz göndərilib.

Qeyd edək ki, Türkiyə Azərbaycandan təbii qazı Cənubi Qafqaz Boru Kəməri (CQBK) (Bakı-Tbilisi-Ərzurum) və TANAP-la idxal edir. 2006-cı ilin sonlarında istismara verilən CQBK hazırda Azərbaycan, Gürcüstan və Türkiyəyə "Şahdəniz" qazını çatdırır.

Bu ilin yanvar-iyul aylarında bu kəmərlə 4 milyard 312,1 milyon kubmetr Azərbaycan təbii qazı göndərilib. Cənubi Qafqaz Boru Kəmərinin gündəlik orta ötürücülük gücü təqribən 21 milyon kubmetr qaz olub. Hesabat dövründə CQBK ilə bağlı fəaliyyətlərə təqribən 18 milyon dollar əməliyyat və 241 milyon dollar əsaslı xərclər sərf edilib.

Kəmərin iki operatoru var – BP şirkəti CQBK obyektlərinin tikintisi və istismarı üzrə məsul texniki operatoru, SOCAR isə CQBK-nın biznes icrası üzrə məsul kommersiya operatorudur.

Cənubi Qafqaz Boru Kəməri şirkətinin sərmayədarları belədir: BP (operator – 28,8 faiz), "AzSCP" (10 faiz), "Cənub Qaz Dəhlizi Midstrim" (6,7 faiz), "Petronas" (15,5 faiz), "LUKoil" (10 faiz), "NICO" (10 faiz), və "TPAO" (19 faiz). Bu il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli isə planlaşdırıldığı kimi, iyunun 30-da başlayıb. Bu vaxtadək TANAP-la Türkiyəyə 198 milyon kubmetr "Şahdəniz" qazı nəql edilib.

## Neftin qiyməti bahalaşır

Dünya birjalarında neftin qiyməti bahalaşır.

Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 0,20 dollar bahalaşaraq 81,40 dollar, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,14 dollar artaraq 72,22 dollar olub.

Birjalarda xam neftin qiyməti 100 dollar/barrelə çata bilər.

Bu proqnozla Asiya-Sakit Okean Neft Konfransında iştirakı zamanı "Mercuria" əmtəə ticarət şirkətinin rəhbəri Daniel Jaeggi çıxış edib.

O bildirib ki, ABŞ-ın İrana qarşı tətbiq edəcəyi sanksiyaların öz təsirini hiss etdirməyə başlaması ilə neftin bir barrelinin qiyməti bu ilin sonunda və ya 2019-cu ilin əvvəlində 100 dollara çata bilər.

Qlobal neft tələbatı ilk dəfə gündəlik 100 milyon barrelə yaxınlaşarkən, Venesuela, Liviya və Nigeriyada istehsaldakı ləngimələr bazarda neft çatışmazlığı yaradır.

"ABŞ-ın sanksiyaları ilə əlaqədar bu ilin dördüncü rübündə bazarda gündəlik 2 milyon barrelədək kəsir yaranacaq və bu proseslər fonunda neftin qiyməti 100 dollar/barrelədək yüksələ bilər.

## "Azeri Light"ın bir barreli 82,21 dollara satılır

Azərbaycan neftinin qiyməti artıb.

"Azeri Light" markalı neftin bir barrelinin qiyməti 1,85 dollar bahalaşaraq 82,21 dollar təşkil edib.



# AQTA ölkəyə idxal olunan bəzi şirniyyat məhsulları ilə bağlı məlumatlara aydınlıq gətirib

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ölkəyə idxal olunan bəzi şirniyyat məhsulları ilə bağlı yayılmış məlumatlara aydınlıq gətirib.

AQTA-nın İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a bildirilib ki, məlumatlarda qeyd olunan məhsullar ("Ozmo" əmtəə nişanlı "Ogopogo" keks, "ETİ" əmtəə nişanlı "Pop kek" (limon) və "Tutku" məhsulları, həmçinin "Nutti" və "Monte Lemo" əmtəə nişanlı şokolad yağları və "Bonduelle" əmtəə nişanlı yaşıl noxud konservi) müxtəlif partiyalarla ölkəyə xaricdən davamlı olaraq idxal olunur və idxal olunan qida məhsullarının hər bir partiyası qida təhlükəsizliyi baxımından ekspertizalara cəlb olunur.

Məlumat verildiyi kimi, sentyabrın 22-dən etibarən yalnız sınaq nümunələri normalara cavab verməyən partiyaya aid olan "Ozmo" əmtəə nişanlı "Ogopogo" keks, "ETİ" əmtəə nişanlı "Pop kek" (limon) və "Tutku" məhsulları, həmçinin "Nutti" və "Monte Lemo" əmtəə nişanlı şokolad yağları və "Bonduelle" əmtəə nişanlı yaşıl noxud qida məhsullarının satışı qadağan olunaraq, dərhal aidiyyəti şirkət tərəfindən həmin partiyaya aid olan məhsullar satış şəbəkələrindən geri çağırılıb.

Satış şəbəkələrindən yığışdırılmış həmin məhsullar müvafiq anbarlarda saxlanılır və araşdırma üzrə əlavə tədbirlər həyata keçirilir.

Hazırda satış şəbəkələrində eyni adda olan məhsullar digər partiyalara aid olan məhsullar olmaqla Qida Təhlükəsizliyi Agentliyi tərəfindən nəzarətdən keçmiş təhlükəsiz məhsullardır.

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# Cümhuriyyətin dil siyasəti

Müstəqil dövlətin mühüm atributlarından biri olan dövlət dili məsələsi yenicə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin diqqət mərkəzində idi. Cümhuriyyət hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etdi. Həmin qərar Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Azərbaycanın iki yerə bölünməsindən sonra ana dilinin dövlət dili kimi işlədilməsinə aid ilk sənəddir. Qeyd edilməlidir ki, dövlət dili haqqında qərar hökumətin Gəncəyə köçdükdən sonra qəbul etdiyi ilk qərarlardan biridir. Bu fakt Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin dövlət dili məsələsinə necə mühüm diqqət yetirdiyini bir daha sübut edir.

Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında qərara əsasən, ölkədə məhkəmə, inzibati idarəçilik və digər vəzifələrin başında duranlar dövlət dilini lazımi səviyyədə öyrənənədək, hökumət müəssisələrində rus dilinin də işlənməsinə yol verilirdi.

Qərardan sonra daxili işlər naziri Behbud xan Cavanşir "Azərbaycan" qəzetinin müxbiri ilə müsahibəsində bildirmişdi: "Azərbaycan müəssisələrində rus dilinin işlədilməsi... hazırkı dövrün zərurətindən irəli gəlir. Əlbəttə, bu, çox davam etməyəcəkdir. Yüksək vəzifədə işləyən və türk dilini bilməyən məmurlar uzun müddət işləyə bilməyəcəklər. İki ildən sonra Azərbaycanın bütün müəssisələri milliləşdiriləcəkdir. Türk dilini bilməyən məmurlar isə vəzifələrini itirməməkdən ötrü bizim dili öyrənməli olacaqlar".

Hökumət qeyri-millətlərdən olan Azərbaycan vətəndaşlarının dövlət dilini öyrənməsi üçün tədbirlər görürdü. 1919-cu ilin sentyabrında türk dilinin öyrədilməsi üçün kurslar təşkil edilmişdi və bu məqsədlə 351 min manat vəsait ayrılmışdı.

Parlament üzvləri Azərbaycan dilinə vaxtaşırı münasibət bildirirdilər. Parlamentin 1919-cu il avqustun 21-də keçirilən iclasında gündəlikdəki məsələ - Bakı Dövlət Universitetinin açılması ilə bağlı deputatların çıxışlarında dil məsələsinə xüsusi diqqət yetirilmişdi. Çıxış edənlərin, demək olar ki, hamısı ölkənin ilk ali məktəbində tədrisin hansı dildə aparılmasına böyük əhəmiyyət verirdilər.

Ana dilinin dövlət dili elan edilməsi ilə əlaqədar olaraq, təhsil müəssisələrinin milliləşdirilməsi qarşıda duran əsas məsələlərdən idi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il avqustun 28-də ibtidai və orta təhsil müəssisələrində təhsilin ana dilində aparılması haqqında qərar qəbul etdi. Qərara görə, bütün ibtidai təhsil müəssisələrində tədris ana dilində aparılır, eyni zamanda, dövlət dili icbari qaydada tədris olunurdu.

1918-ci il dekabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun 34 saylı əmri ilə Azərbaycan-türk dili orduda da dövlət dili kimi qəbul edilmişdi.

Azərbaycan dilinin, sözün əsl mənasında, dövlət dili kimi işlənməsi təcrübəsi geniş şəkildə ilk Azərbaycan Parlamentinin dilində əksini tapmışdır. Dövlət idarələrində müəyyən müddət ərzində rus dilinin işlənməsinə də icazə verilməsi Parlamentə aid deyildir.

Ona görə də parlamentdə dillərin işlənməsi məsələsi, təbii olaraq, qanunverici hakimiyyətin, Parlament üzvlərinin öhdəsinə buraxılmışdı. Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# QƏBƏLƏ RAYONU: AZAD SAHİBKARLIQ MÜASİR İNFRASTRUKTURLA SIX VƏHDƏTDƏ İNKİŞAF EDİR

Qəbələ bu gün Azərbaycanın ən cəlbedici, gözəl və yaraşıqlı məkanlarından birinə çevrilib. Son illər həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri rayonun iqtisadi yüksəlişinə və turizmin inkişafına böyük təkan vermişdir. Cari ildə də Qəbələdə tikinti-quruculuq və abadlıq tədbirləri görülmüş, azad sahibkarlığın inkişafı və biznes mühitinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmişdir.

Bu gün Qəbələ regional müstəvidə, eyni zamanda, geniş anlamda tanınan turizm mərkəzinə çevrilmişdir. İnkişaf və tərəqqi dalğası rayonun kənd və qəsəbələrindən, yaşayış məntəqələrindən də yan keçməmiş, yeni istirahət mərkəzləri, istehsal və emal müəssisələri açılmışdır ki, bunların da çoxu özəl bölmənin payına düşür.

Hər bir bölgənin inkişaf göstəricisi burada mövcud olan infrastrukturun səviyyəsi və yaradılan şəraitlə ölçülür. Cari ildə Qəbələ şəhərində 160 çarpayılıq mərkəzi rayon xəstəxanasının tikintisinə başlanılıb. İlin ötən dövrü ərzində 170 yerlik körpələr evi-uşaq bağçasının, içməli su və kanalizasiya sisteminin yenidən qurulması, Laza kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin tikintisi aparılıb. Bununla yanaşı, Zərgərli kəndində 56 şagird yerlik modul tipli ibtidai məktəbin tikintisi, Nic-Mıxılqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun əsaslı təmiri, şəhərin Muxtar Abıyev küçəsində beşmərtəbəli, Heydər Əliyev prospektinin ətrafındakı ikimərtəbəli yaşayış binasının əsaslı təmiri həyata keçirilib. Eyni zamanda, Zarağan kəndində tam orta məktəb binasının dam örtüyünün təmiri, Mıxılqovaq kəndində içməli su təchizatı sisteminin qurulması, Mıxılqovaq və Kötüklü kəndlərinin qazlaşdırılması işləri davam etdirilir. Zərifə Əliyeva adına Mədəniyyət və İstirahət Parkında əsaslı təmir işlərinə başlanılıb, Hacılı kəndində 40 yerlik uşaq bağçasının təmir işləri yekunlaşıb. İcra olunan layihələrlə yanaşı, yeni layihələr üzərində də işlər gedir. Həmin layihələrin üçü bilavasitə təhsillə bağlıdır. Belə ki, Təhsil Nazirliyinin sifarişi ilə Vəndam qəsəbəsində 360 şagird yerlik, Qaradeyin kəndində 80 şagird yerlik modul tipli tam orta məktəb, Şəfili kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəb binasının tikintisinə hazırlıq işləri görülür. Həmçinin, "Azərbaycan Dəmir Yolları" ASC-nin sifarişi ilə 43 kilometr uzunluğunda Ləki-Qəbələ birxətli dəmir yolunun tikintisinə hazırlıq işləri aparılır. Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, əhalinin içməli suya tələbatının ödənilməsi ilə əlaqədar Çarxana, Aydınqışlaq, Xırxıtala, Yenikənd, Tövlə və Uludaş kəndlərində subartezian quyularında qazma işləri başa çatdırılıb.



2018-ci ildə Qəbələyə gələn yerli və xarici turistlərin, rəsmi qonaqların sayı əhəmiyyətli dərəcədə artıb, rayonun beynəlxalq əlaqələri genişlənib. Cari ilin fevral ayında VI Beynəlxalq Multikulturalizm Qış Mərkəzinin 16 ölkədən olan iştirakçıları Qəbələnin Nic qəsəbəsində səfərdə olublar.

May ayında Qəbələ Stend və Ox Atıcılığı Kompleksində ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş stend atıcılığı üzrə Beynəlxalq Qran-pri yarışları, iyun ayında Vəndam qəsəbəsi ərazisində 1500 nəfərin iştirakı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi"nə həsr olunmuş "Tarixin canlı səhifələri" adlı VI Gənclər festivalı, Heydər Əliyev Konqres Mərkəzində 350 nəfərin iştirakı ilə "Gənc xilasedici və yanğınsöndürən" VII Ümumrespublika birinciliyinin final mərhələsi keçirilib. Bununla yanaşı, Almaniya Federativ Respublikasının səfiri Mixael Kindsqrab Qəbələ rayonunda olmuş, rayonun tarixi-mədəni yerləri, sənaye və emal müəssisələri ilə yaxından tanış olmuşdur.

İyul ayında Qəbələ nümayəndə heyəti Polşa Respublikasının müstəqilliyinin bərpa olunmasının 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Qnezna şəhərində səfərdə olmuş, bölgənin tarixi-mədəni yerləri, turizm mərkəzləri ilə tanış olmuşdur. Bu qarşılıqlı səfərlər gələcək əməkdaşlıq üçün yaxşı imkanlar açır. İlin əvvəlindən Qəbələdə 42 idman tədbiri keçirilib. Qəbələ Olimpiya İdman Kompleksinin fəaliyyəti də ürəkaçandır. Kompleksin xidmətlərindən gün ərzində orta hesabla 376 gənc istifadə edir.

Respublikamızın digər rayonlarında olduğu kimi, Qəbələdə də dövlət qayğısının artırılması nəticəsində aqrar sahədə irəliləyiş nəzərə çarpır. Altı ay ərzində ölkə üzrə aqrar sahədə 4,2 faiz artım olub. Bu tendensiya Qəbələdən də yan keçməyib. Kənd təsərrüfatı məhsulları istehsalına dövlət büdcəsi vəsaiti hesabına yardımların verilməsini nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamı təsərrüfat subyektləri tərəfindən böyük razılıqla qarşılanmış, hər kəsdə ruh yüksəkliyi yaratmışdır. Cari ilin may ayından həmin yardımların hesablanmasına başlanmışdır.

Taxılçılıq Qəbələ rayonunun aqrar iqtisadiyyatının əsasını təşkil edir.

2018-ci ilin məhsulu üçün 2017-ci ilin payızında 20 min 100 hektar sahədə payızlıq dənli bitkilər əkilib. Bunun 14 min 600 hektarı buğda, 5500 hektarı isə arpadır. Zəmilərdən hər hektara orta hesabla 32 sentner məhsul götürülüb.

Sahibkarlıq subyektləri tərəfindən 2018-ci ildə 632 hektar sahədə kartof, 559 hektarda tərəvəz əkilib. Sahələrdən məhsul tədarükü davam edir. Son iki-üç ildə rayonun kənd təsərrüfatının əkin strukturunda dəyişikliklər aparılıb.

Heyvandarlığın yem bazasını möhkəmləndirmək üçün taxıl sahələri 1500 hektar azaldılıb və həmin sahələrdə yem bitkiləri əkilib. Yonca, vələmir, yem noxudu, yem çuğunduru əkinləri aparılıb.

Rayonda üzümçülük və meyvəçilik də aparıcı sahələrdən hesab olunur. Hazırda Qəbələdə 6854 hektar meyvə bağları, 508 hektar üzüm plantasiyaları mövcuddur. Əhalinin həmin məhsullara tələbatının ödənilməsi, emal müəssisələrinin xammal təminatının yerinə yetirilməsi üçün meyvə və üzüm bağlarının genişləndirilməsi və məhsuldarlığın yüksəldilməsi istiqamətində əməli tədbirlər davam etdirilir.

Kənd təsərrüfatı məhsulları istehsalının ixtisaslaşdırılması istiqamətində görülən tədbirlər sırasında ixracyönlü məhsul istehsalının artırılmasına daha çox diqqət yetirilir. Rayonda 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulur. 2016-2017-ci illərdə 1218 hektar, yazında isə 130 hektar olmaqla 1338 hektar yeni fındıq bağları salınıb. Cari ilin payızında daha 700 hektar fındıq bağları salınacaq. 2018-ci ilin birinci yarısında dövlət meşə fondu torpaqlarının 323 hektar ərazisində aqromeşə massivləri, meyvə bağları salınıb. Bunun da 15,5 hektarı fındıq, 7,3 hektarı şabalıd, 0,8 hektarı alma bağlarıdır.

Qəbələ rayonunda uzun fasilədən sonra barama və tütün istehsalına başlanılıb. Cari ildə 101 nəfər kümçü tərəfindən 9110 kiloqram barama istehsal edilib. Barama istehsalının artırılması məqsədilə 2016-cı ilin payızından etibarən tut bağlarının əkilməsinə başlanılıb ki, bu da gələcəkdə rayonda barama istehsalının artırılmasına gətirib çıxaracaq.

Bundan başqa, 75 hektar sahədə tütün əkilib, sahələrdə bütün aqrotexniki tədbirlər vaxtlı-vaxtında aparılıb və tütün qırımı işləri davam edir.

2018-ci ilin ötən dövrü ərzində güzəştli şərtlərlə 686 təsərrüfat subyektinə 1412 ton gübrə və 3292 litr pestisid verilib. Bu isə məhsuldarlığın artırılmasına və keyfiyyətin yüksəldilməsinə müsbət təsir göstərəcək.

Bir sözlə, Qəbələ rayonunda aqrar sahədə sistemli və ardıcıl tədbirlər həyata keçirilir. Bunun sayəsində rayon iqtisadiyyatında özəl bölmənin payı artan dinamika ilə davam edir. Lakin aqrar sahə ilə yanaşı Qəbələ böyük turizm imkanları olan rayondur. Qəbələnin gözəl təbiəti var, tarixi abidələrlə zəngindir. Burada xalqımızın minilliklərin dərin qatlarına gedib çıxan tarixi yatır. Qəbələni turistlər üçün cəlbedici edən də onun bu məziyyətləridir. Odur ki, Qəbələdə turizm inkişaf edir. Turizmin bütün növlərini, o cümlədən dağ turizmi, meşə turizmi, ekoturizm, kənd turizmi, aqroturizm kimi növlərini inkişaf etdirmək üçün Qəbələdə intəhasız imkanlar mövcuddur. Bu dilbər guşənin əzəmətli dağları, meyvəli bağları, zümrüd meşələri, buz kimi bulaqları, gur axan çayları, şəlalələri vardır.

Rayonun hər bir kəndi turist qəbul edə bilər. Turizmlə məşğul olmaq istəyən hər bir kənd adamına kömək göstərilməli, yardım əli uzadılmalıdır. Sirr deyildir ki, hələ bir çoxları təkbaşına bu işin öhdəsindən gələ bilmirlər. Əgər belə olarsa, əminliklə demək olar ki, Qəbələdə turist qəbul etməyən bir fərdi ev tapmaq çətin olacaq.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# “AtaSığorta”nın yeni məhsulu: “Petrollu Kasko”

***“AtaSığorta” Şirkəti haqqında ümumi məlumat:***
***“AtaSığorta” ASC 2004-cü il iyul ayının 21-də rəsmi dövlət qeydiyyatından keçmişdir və həmin ilin sentyabr ayının 3-dən etibarən tam lisenziyalı sığorta fəaliyyətini həyata keçirir. Şirkətin ödənilmiş nizamnamə kapitalı 14,6 mln. AZN təşkil edir. Şirkətin aktivləri hal-hazırda 30 milyon manatdan çoxdur. Şirkət 26 könüllü və 4 icbari sığorta növü üzrə sığorta xidmətləri təqdim edir. İcbari Sığorta Bürosunun üzvüdür. “AtaSığorta” ASC Bakı şəhəri daxil olmaqla regionlar üzrə 15 filialı, 19 nümayəndəliyi və 60-dan çox satış ofisi ilə müştərilərə xidmət göstərməkdədir.***

“AtaSığorta” ASC İdarə Heyətinin sədr müavini
Qoşqar Həsənovla müsahibə

***- Hörmətli Qoşqar müəllim, bildiyimiz kimi, “AtaSığorta” Şirkəti olaraq 30 növ üzrə sığorta xidməti göstərirsiniz. Müştərilərin daha çox üstünlük verdiyi sığorta növləri hansılardır?***

- Bəli, hazırda 30 sığorta növü üzrə müştərilərə sığorta xidmətləri göstəririk. Qeyd edim ki, bütün sığorta məhsullarından istifadə edilməsi vacibdir. Sığorta növləri iki hissəyə bölünür. Könüllü növlər və icbari növlər. Bu gün sığorta məhsulunu almaq istəyən müştərilər, ilk növbədə icbari növləri alırlar. Sonra isə digər könüllü sığorta növlərini almağa səy göstərirlər.

***- “AtaSığorta” könüllü sığorta növləri üzrə növbəti illərdə bazar rəqabətinə necə davam gətirmək niyyətindədir?***

- Biz sığorta yığımlarımızın genişlənməsini və xərclərin müəyyən formada optimallaşdırılmasını planlaşdırırıq. 2018-2020-ci illər üzrə şirkətimizin nəzərdə tutulan strategiyasına uyğun olaraq, qarşımızda duran proqnozlar bunu deməyə imkan verir. Hesab edirik ki, bu il və növbəti illər üzrə könüllü satışlarımızı artıracağıq. Qeyd edə bilərəm ki, 2018-ci ilin 8 ayı ərzində könüllü satışlarımız ötən ilin eyni dövrü ilə müqayisədə 25% artıb. Şirkətimiz könüllü növlər üzrə müştərilərin rahatlığı və istəklərinə uyğun olaraq, “Sərfəli Kasko”, “Qoşa Kasko”, “Arxayın mən” və “Sığortalıyam” məhsullarını bazara təqdim edib. Sentyabr ayından etibarən daha bir yeni məhsul - “Petrollu Kasko” məhsulu müştərilərə təqdim olunub. Sığorta risklərimizi səmərəli idarə etmək məqsədilə sığorta portfelimizi bir qədər diversifikasiya etmək istəyirik. Həmçinin, xidmətlərimizin keyfiyyətini artırmaqla sığorta bazarında ciddi rəqabət aparan şirkətlərdən biri kimi bütün imkanlarımızdan istifadə etməyə çalışırıq. Şirkətimiz fəaliyyətinin əsas prinsipi kimi fiziki və hüquqi şəxslərə yüksək səviyyədə sığorta xidmətləri göstərməklə, onların tələbatına uyğun yeni məhsulları təqdim etməyi davam etdirməkdədir.

***- Qoşqar müəllim, könüllü növlər üzrə hansı yeniliklər olacaq? Satış üsulları dəyişəcəkmi?***

- Təbii ki, hər zaman olduğu kimi, bu sahədə yeniliklər olacaq. Məsələn, 2018-ci il üçün əsas istiqamət həmişə olduğu kimi, sığortalıya və potensial sığortalıya maksimum yaxın olmaqdır. Satış strategiyamızda daim bazarın tələbatını nəzərə almağa çalışırıq. Belə ki, həm icbari, həm də könüllü sığortada müştərilərlə danışıqlar aparırıq ki, onların sığortadan gözləntilərini müəyyən edib, tələbə uyğun məhsullar hazırlayaq. Məsələn, bu il üçün iki maraqlı layihəmiz var, onu artıq açıqlamaq olar. Biz, yeni sığorta məhsullarını - “Petrollu Kasko” və “Medikal Travel” Tibbi Sığorta paketini Azərbaycan Respublikası ərazisində bütün (xarici və yerli vətəndaşlar) səyahət edən şəxslər üçün hazırlamışıq. Hazırda “Petrollu Kasko” üzrə reklam məsələləri və digər məsələlər tam şəkildə tamamlanmış və müştərilərin ixtiyarına verilmişdir. Həmçinin, “Medikal Travel” Tibbi Sığorta paketini tamamlamaq üzrəyik və tezliklə bu layihəyə başlayacağıq.

***- Qeyd etdiniz ki, sentyabr ayından “AtaSığorta” ASC sığorta bazarına yeni “Petrollu Kasko” məhsulunu təqdim edib. Xahiş edirik, “Petrollu Kasko” məhsulu haqqında ətraflı məlumat verərdiniz.***

- Bəli, “AtaSığorta” ASC sentyabr ayından etibarən sığorta bazarına yeni “Petrollu Kasko” məhsulunu təqdim edir. Daim müştərilərin məmnuniyyətini düşünən “AtaSığorta” ASC bu dəfə fərqli və səmərəli şərtlərlə fiziki şəxslərə əlverişli avtomobil sığortası təklif edir. “Petrollu Kasko” məhsulunu əldə etdikdə müştəri həm avtomobili sığortalayır, həm də hədiyyə qazanır. Belə ki, bu məhsulu əldə edən müştəriyə sığorta olunan avtomobilin bazar dəyərinin 1%-i həcmində yanacaq hədiyyə edilir. Hədiyyə olunan yanacaq müştəriyə 2 hissədə təqdim olunur. Yanacağın 50%-i müqavilə rəsmiləşdirilən zaman, 50% -i isə 3 aydan sonra müştəriyə verilir.



“Petrollu Kasko” məhsulunu bazar dəyəri 10 000 AZN-dən 80 000 AZN-dək və istehsal ili 2000-ci ildən yuxarı olan avtomobil sahibləri əldə edə bilərlər. Bu məhsulu aldıqda avtomobil tam dəyərində birdəfəlik sığortalanmalıdır və sığorta tarifi çox sərfəlidir. Məsələn, dəyəri 30 000 AZN olan avtomobil üzrə sığorta haqqı 960 manata qədər təşkil edir və müştəriyə 300 AZN həcmində yanacaq hədiyyə olunur.

***- “Petrollu Kasko” sığorta məhsulunu online almaq mümkündürmü?***

- Bəli, həm “Petrollu Kasko” məhsulunu, həm də “AtaSığorta” ASC-nin digər məhsullarını “AtaSığorta” ASC-nin internet səhifəsindən (https://atasigorta.az/) online sifariş etmək mümkündür. Həmçinin, “AtaSığorta” ASC-nin (012 936) telefon xətti daim müştərilərin xidmətindədir.

***- “Petrollu Kasko” məhsulunu əldə etmək üçün hansı sənədlər tələb olunur?***

- Bunun üçün doldurulmuş ərizə forması, sığortalı şəxsin şəxsiyyət vəsiqəsi və sürücülük vəsiqəsinin surəti və avtomobilin hazırkı vəziyyətini təsdiq edən fotoşəkilləri tələb olunur.

***- Azərbaycanda sığorta bazarının inkişafı ilə bağlı nə deyə bilərsiniz?***

- Təbii ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının və sığorta şirkətlərinin həyata keçirdiyi maarifləndirici layihələr bazarın inkişafına öz müsbət təsirini göstərmişdir. Dövlət nəzarət orqanının açıqladığı rəqəmlər bu inkişafı bir daha sübut edir. Deməli, bu il üzrə sığorta bazarı 40%-dən çox genişlənib, yığımlar artıb. Bunu qənaətbəxş göstərici hesab etmək olar.

***- Sonda əlavə etmək istədiyiniz bir şey varmı?***

- “AtaSığorta” şirkətinə ayırdığınız vaxta və diqqətinizə görə təşəkkürümüzü bildiririk. Biz müştərilərimiz üçün çalışırıq, onların layiqli dostu və təminatçısı olmaqdan qürur duyuruq. Ona görə də bizim şüarımız “Sizinlə dost sığorta”dır. Bütün müştərilərimizin bizə göstərdiyi etimadı doğrultmağa çalışmışıq, çalışırıq və çalışacağıq.

***- Qoşqar müəllim, maraqlı müsahibəyə görə sizə dərin təşəkkürümüzü bildiririk.***

**Müsahibəni aldı:**
**Dilara Zamanova,**
**“AtaHolding”in Korporativ Kommunikasiyalar şöbəsinin rəisi**

# AZSIĞORTA Bakıdakı güclü yağış nəticəsində zərər çəkmiş əmlaklar üzrə sığorta ödənişlərinə başlayıb

23 sentyabrda səhər saatlarında Bakı şəhərində baş vermiş güclü yağış nəticəsində bir çox əmlaklara - yaşayış evlərinə və kommersiya obyeklərinə ziyan dəymişdir. Bununla bağlı AZSIĞORTA-ya 40-a yaxın müraciət daxil olmuşdur. Bu müraciətlər daşınar və daşınmaz əmlaklara dəyən zərərlərlə bağlıdır. İlkin hesablamalara görə, sığortalılara dəymiş ziyanın ümumi məbləği təqribən 350-400 minmanat ətrafında dəyərləndirilir.

Hazırda AZSIĞORTA-nın əməkdaşları gücləndirilmiş iş rejimində çalışır və hər bir hadisə üzrə dəymiş zərər məbləğini dəqiqləşdirirlər. Ödənişlər müvafiq sənədlər hazırlanandan sonra ən qısa zamanda həyata keçiriləcəkdir.

Qeyd edək ki, güclü yağış nəticəsində əmlaklarına dəyən ziyan ilə bağlı bütün AZSIĞORTA müştəriləri *6565, *7676, (012) 505 66 66 və (012) 565 66 66 nömrələr vasitəsilə şirkətə müraciət edə bilərlər.

Daşınmaz əmlakın icbari sığortası yanğın və ya digər hadisələr nəticəsində əmlakının zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi məqsədi ilə tətbiq edilir.




AZSIĞORTA ölkənin ən stabil sığorta şirkətlərindən biridir. Fitch beynəlxalq reytinq agentliyi şirkətin etibarlığını təsdiq edərək, ona “B” reytinqini təyin etmişdir.

# SOCAR-ın Ukraynadakı yanacaqdoldurma məntəqəsi MDB-də ən yaxşı YDM seçilib

Bu barədə SOCAR məlumat yayıb. “SOCAR Energy Ukraine” şirkətinə məxsus Odessa şəhərindəki yanacaqdoldurma məntəqəsi “Sovremennaya AZS” (“Müasir yanacaqdoldurma məntəqəsi”) jurnalının ekspert komissiyasının araşdırmasına əsasən, MDB ölkələrində ən yaxşı məntəqə seçilib.

Qeyd edək ki, SOCAR Ukraynadakı fəaliyyətini “SOCAR Energy Ukraine” şirkəti vasitəsilə həyata keçirir və şirkət 2009-cu ilin dekabrında yaradılıb. Şirkətin əsas fəaliyyəti neft məhsullarının topdan və pərakəndə, təbii qazın topdan və aviasiya yanacağının topdan satışını həyata keçirməkdən ibarətdir. SOCAR tərəfindən şirkətə fəaliyyətə başladığı dövrdən etibarən ümumilikdə 286 milyon dollar həcmində sərmayə yatırılıb. Şirkətin Ukrayna ərazisində 61 YDM-i fəaliyyət göstərir.




Ukraynada “SOCAR Energy Ukraine” şirkətinə məxsus 4 neft bazası Kiyev, Odessa, Lvov və Xarkov şəhərlərində fəaliyyət göstərir. Bu ilin birinci yarısında “SOCAR Energy Ukraine” ölkəyə 250 milyon kubmetr təbii qaz idxal edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 dəfə çoxdur.

# “Goldman Sachs”dan neftin qiymətinə dair yeni proqnoz

“Brent” markalı xam neftin bir barrelinin qiyməti yenidən 82,5 dolları test edə bilər. ABŞ-ın qabaqcıl investisiya banklarından olan “Goldman Sachs” bu qənaətdədir.




“Goldman Sachs”a görə, İrana qarşı yeni sanksiyaların tətbiq olunması nəticəsində “Brent” neftinin qiyməti 82,5 dollar/barrel səviyyəsində möhkəmlənə bilər. Lakin qiymətin bu səviyyədən yuxarıya qalxması üçün neft təklifində proqnozlardan daha çox azalma olmalıdır.

Bank İranın neft ixracının gündəlik 1,4 milyon barrel azalacağını gözləyir.

“İlin sonunda neftin qiyməti 70-80 dollar/barrel arasında dəyişəcək. Geosiyasi gərginliklər, artan neft tələbatı ilə əlaqədar “qara qızıl”ın qiymətində yuxarı istiqamətli dəyişkənlik olması mümkündür”, - deyə “Goldman Sachs” bildirir.

# Qeyri-OPEC ölkələrinin neft hasilatı 2023-cü ilədək sutkalıq 66,1 milyon barrelə qədər artacaq

Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv olmayan ölkələrin neft istehsalı 2023-cü ilədək gündəlik 66,1 milyon barrelə çatacaq.

Bu barədə OPEC-in 2018-ci il üzrə “World Oil Outlook” hesabatında deyilir.

Hesabata görə, başda ABŞ olmaqla qeyri-



OPEC ölkələrində xam neft istehsalının artması 2023-cü ilə qədər neft tələbatının azalmasına səbəb olacaq. Ötən il sutkada 51,7 milyon barrel neft hasil edən qeyri-OPEC ölkələri istehsalını 2023-cü ilədək gündəlik 66,1 milyon barrelə qədər artıracaq. Keçən il gündəlik 7,4 milyon barrel neft istehsal edən ABŞ isə 2023-cü ildə hasilatını 13,4 milyon barrelə yüksəldəcək.

# АРХИТЕКТОР АЛТАЙ СЕИД ГУСЕЙН ОГЛЫ МИР-БАГИРОВ

## Посвящение дню памяти – дня рождения – 4 октября 1934 года

*Выражаю глубокую признательность и благодарность редакции и учредителю газеты «Игтисадиййат» академику, депутату Милли Меджлиса Азербайджана, вице-президенту Международного Союза Экономистов, председателю комитета промышленности и предпринимательства экономической политики Зияду Самедзаде за публикацию данной статьи, посвящённую дню памяти моего отца, архитектора Алтая Мир-Багирова*

**ФАРИДА МИР-БАГИРЗАДЕ**
**Доцент по эстетике, доктор философии в области искусствоведения**



Алтай Сеид Гусейн оглы родился в городе Баку 4 октября 1934 года. Мать-Ситара Кябля Гямбяр гызы (1904-1967) занималась воспитанием детей. Отец - Сеид Гусейн Мир Садых оглу Мир-Багиров (1897-1956) – военный, пройдя суровую, трудную жизнь послевоенного времени в первой половине XX века, всячески опекал своего сына-воспитанника - «сонбешика». Алтай был любимчиком родителей, своих сестёр и брата.

В 1942-1949 годах он с отличием заканчивает среднюю общеобразовательную школу № 201 в городе Баку.

Поощрения родителей вдохновили юного архитектора, и он приходит заниматься изобразительным искусством во Дворце Пионеров. Окончив успешно семилетнее образование в 1949 году, он подаёт свои документы в Азербайджанский Нефтяной техникум, который успешно заканчивает в 1950 году. Призыв на службу в военные ряды Советской Армии отдаляет его в Сталинград (ныне Волгоград,1953-1955). Отслужив, он возвращается на свою Родину в Азербайджан со званием лейтенанта противовоздушной обороны.

Жизнь всё больше закаляет его. Однако любовь к архитектуре не покидает его, и он подаёт документы в Азербайджанский Политехнический Институт в 1956 году на факультет архитектуры. Мечта детства осуществилась и стала ведущей линией его творчества. Студенческие годы пролетели очень стремительно. Он блестяще защищает свой дипломный проект на тему «Многоэтажный рамповый гараж» и получает диплом архитектора в 1962 году. По распределению на работу он едет в Сибирь на один год, где работает архитектором в городе Новокузнецк, в проектном институте «Сибирьпромпроект». После окончания срока молодой архитектор вновь возвращается в родной Баку. В 1963-1965 годах он руководит строительством в «Азглавэнэрго» (Дирекции строящихся ЛЭП и подстанции). В 1965 году переводом в Баку архитектор приступает к самостоятельной, обширной деятельности в азербайджанском отделении Московского института «Созкурортпроект» с 1965 по 1992 годы.

Плодотворная и деятельная жизнь мастера архитектуры вплетается своими результатами в пути развития советского периода и развития зодчества нового времени. Из педагогов-архитекторов и практиков были многогранные и талантливые специалисты. Среди них : Микаэль Усейнов – народный архитектор СССР, академик Азербайджанской Национальной Академии Наук; Гасан Меджидов. Его наставником и ведущим педагогом был Микаэль Усейнов. Имя и творчество этого замечательного человека прочно закрепилось в памяти А.Мир-Багирова. Фундаментальное изучение истории и теории архитектуры, её практики и тончайших нюансов сыграло в жизни молодого архитектора большую роль. Он укрепил свои знания с лучших графических образцов памятников архитектуры античной Греции, Рима, Итальянского Возрождения, Арабского Востока и новых достижениий в области зодчества.

Работы, исполненные А.Мир-Багировым в студенческие годы, вызывали большой интерес, как среди педагогов, так и среди своих однокурсников. Не раз его работы являлись образцами–пособиями на стенах кабинета архитектуры института. В те годы в Баку всё чаще проводились архитектурные конкурсы. Они являлись для молодых архитекторов творческими исканиями и решением утвердить свои возможности и замыслы. В таких конкурсах неоднократно участвовал и А.Мир-Багиров. После развала СССР с 1992 по 2002 годы институт стал называться «Азеркурортпроект». С 2002 года и по 2009 год А.Мир-Багиров продолжил свою творческую деятельность главного архитектора в институте «Азериншаатлайихя», с 2004 по 2008 годы - начальником отдела архитектуры, а в 2008-2009 годах он был главным консультантом в области архитектуры.

Его обширное творчество охватывает значительный период деятельности, начавшийся с 60-х годов XX века, и развивался по 2009 годы, являясь живой летописью развития архитектуры в различные исторические периоды текущего времени.

В нём сконцентрирован большой творческий потенциал идей и решений, заряд оптимизма на всех этапах сложного развития архитектуры, и сегодня он считается в числе лидеров старшего поколения общеизвестных азербайджанских архитекторов-могикан.

Большое количество проектированных им зданий построены за рубежом и утверждены в главных институтах экспертной комиссией архитектуры данного города. Из числа таких городов можно назвать: Мары, Чарджоу, Ашхабад, Ташауз, Халачский район Туркменской Республики и Махачкала - Дагестанская Автономная Республика. Его творчество, разностороннее по архитектурным жанрам и художественному содержанию, неиссякаемо поисками выразительного языка и стиля архитектуры, в ней также центральной нитью проходит утверждение значимых, почитаемых им традиций азербайджанской культуры. Отечественное, национальное зодчество стало для него той почвой, которая дала букет из



*Построенный 3-х блочный, 4-х этажный жилой дом для инвалидов и семей шехидов Карабахской войны в посёлке Хырдалан (2003-3004)*

поля самых больших соцветий цветов лучшего качества.

Среди работ, составляющих большое наследие для своего народа, заслуживают достойного внимания проекты построенных 4-х этажных и 9-ти этажных жилых домов для инвалидов и семей шехидов Карабахской войны в 36 регионах и районах Азербайджана, городах - Сумгаите, Баку, Гянджа и Хырдалане, Апшероне, посёлках - Говсаны, Сураханы, Зых, начиная с 2003 по 2009 годы. Строительство этих домов и по сей день продолжается.

В 2007 году в посёлке Говсаны началось строительство 9-этажного с 81 квартирами жилого дома для ветеранов II мировой войны, инвалидов и семей шехидов Карабахской войны, которое закончилось в 2009 году. 15 октября 2009 года в посёлке Говсан состоялась церемония открытия этого жилого дома. В церемонии принял участие Президент Азербайджанской Республики Ильхам Алиев и сказал: «Дорогие друзья, сердечно поздравляю вас со сдачей в эксплуатацию этого прекрасного здания, желаю вам здоровья и долголетия. Вы заслуживаете это. Вы стали инвалидами, сражаясь за Родину» (AzərTac, 15 октября 2009 года). После Президент Азербайджанской Республики Ильхам Алиев сообщил об общей площади строительства, которая составляет 1 790 квадратных метров. В девятиэтажном здании - 81 квартира, из которых 72 – двух, а 9 - трёхкомнатные. В здании установлены лифты и специальные сооружения для свободного передвижения инвалидов, построены котельня, насосная, трансформаторная подстанция, квартиры оснащены линиями связи, водой и газом. Повторное строительство такого дома было в городе Хырдалан, посёлке Сураханы. Эти постройки прекрасно украшают магистрали центральных улиц Азербайджана.

Начало плодотворной архитектурной деятельности с 60-х годов XX века совпало с периодом масштабного строительства в Азербайджане. Тогда, в те годы, молодой архитектор активно включился в программу градостроительства, как в Азербайджане, так и за её пределами. Вдохновляясь прогрессивными концепциями в мире архитектуры и претворяя в жизнь различные по назначению проекты, он отдал дань рационализму и логичности функционального решения, выразительной пластике объёмов и чёткой композиционной структуре. Его перу



*1-вариант 9-ти этажного жилого здания с 81 квартирами для инвалидов и семей шехидов Карабахской войны (2006)*

принадлежат авторские проекты – аэропорта (1973-1975) и больницы (1974) в городе Нафталан Азербайджана (1989), реконструкция интерьера телетеатра (1977), реконструкция интерьера здания УВД в городе Гянджа Азербайджана (1975), административное здание МВД в Нахичевани (1977),туристическая база в Мингечауре (1979-1980) санатории-профилактории в городах Мары (1974-1980), Чарджоу (1975-1981) и Ташауз (1976-1980) в Туркменской Республике.

Тематика созданных проектов Алтая Сеид Гусейн оглы Мир-Багирова охватывает градостроительство, учреждения – административные здания, жилые и загородные дома, офисы, культурно – просветительные комплексы (спортивные комплексы, кинотеатры, телетеатр), санатории, больницы, лечебные корпуса, учреждения отдыха и так далее. В строительстве построек зданий характерно использование новых технологических достижений и современных строительных материалов. Все рабочие проекты построек зданий очень изысканны. Их отличает новизна и своеобразные решения.

Произведения 70-90-х годов XX века отражают большой жизненный творческий поиск мастера архитектуры. Архитектура в работах этого периода национальна, и в то же время интернациональна, потому что их питает традиция, воспринятая автором, как постоянно обновляющееся и развивающееся начало и взаимодействующее с достижениями различных культур. С 1990-х годов он проектирует частные дома на Апшероне, сохраняя национальный колорит в архитектуре с синтезом западно-европейской архитектуры.

Малое предприятие «Турал» построило 17-этажный жилой дом в 2003-



*9-ти этажное жилое здание с 81 квартирами для инвалидов и семей Шехидов Карабахской войны (2008-2009)*

2004 годах. Автором проекта был Алтай Сеид Гусейн оглы Мир-Багиров. К характеристике архитектурного облика этого высотного здания можно отнести прямые углы контура фасадов, ленточное остекление этажей, лёгкость здания по визуальному восприятию, спокойные цветовые тона в сочетании бело-оранжевых тонов. В ленточном остеклении этажей здания сделана «перфорация фасада» (чередование разных по размеру окон), что придаёт зданию и так достаточно необычной формы ещё большую динамику.

По проекту архитектора Алтая Мир-Багирова осенью 2006 года началось строительство грандиозного, масштабного спортивного комплекса в районе Шамкир на основе Государственной программы по социально-экономическому развитию регионов Азербайджана, которое закончилось в 2009 году. 1 ноября 2006 года Президент Азербайджанской Республики Ильхам Алиев заложил фундамент этого спортивного комплекса. Территория этого комплекса состоит из 9 гектаров, основной корпус - из 9 этажей. В этом корпусе размещены основной зал для проведения игр в гандбол, волейбол, футбол, баскетбол.

В этом спортивном комплексе салоны для гимнастики и тяжёлой атлетики, спортивных игр, борьбы, бокса, гостиница на 30 мест и столовая на 73 места, стадион для футбола на 2 000 зрителей, автомобильная парковка и одноэтажный коттедж. Спортивный Олимпийский комплекс в районе Шамкир отвечает современным строительным требованиям и создан для проведения местных и международных соревнований, а также для физической подговки спортсменов.

На открытии этого Спортивного Олимпийского комплекса принимал участие Президент Азербайджанской Республики Ильхам Алиев. Он сказал: «Добро пожаловать уважаемые участники. Я поздравляю вас с открытием этого прекрасного спортивного комплекса. Грандиозная постройка отвечает современным строительным требованиям. На высоком уровне как внутреннее, так и внешнее оформление. Из построенных спортивных комплексов в Азербайджане он стоит на первом месте» (AzərTac, 25 мая 2009 года).

Один из соавторов эскиза проекта административного здания в посёлке Тюрканы является директор института «Азяриншаатлайиха» Юсиф Нагиев (2007 год) наравне с архитектором Алтаем Мир-Багировым. Проект изначально планировался на деловое направление активного отдыха. Комплекс состоит из трёх административных зданий в форме трилистника, каждый из которых носит своё название. В центре композиции возвышается диспетчерская башня с наблюдательным пунктом, создавая возможность смотреть за направлениями и движениями малых кораблей и полётами вертолётов. Здание будет иметь полосы движения в каждую из сторон, и располагаться на южном берегу Каспийского моря в посёлке Тюрканы.

Архитектор Алтай Мир-Багиров в 2007 году выполнил проект терапевтического корпуса военного госпиталя для Министерства Обороны. Целостный характер композиции этой постройки достигнут при равноценности и равнокачественности элементов проекта архитектора А.Мир-Багирова. Этот госпиталь построен в городе Баку и функционирует.

Эскиз проекта бульвара новой постройки Бакинского залива Биби-Хейбят, Шихово, Баилово и Зых, включая побережье моря (2007-2008 годов) был поручен архитектору Алтаю Мир-Багирову и представляет большой интерес.

Планируется в одном направлении от центра Бакинского залива, Биби-Хейбят, Баилово, Шихово; в другом же направлении – Ахмедлы, Зых и близкая к Баку Зиря, каменная Зиря, Пески, Ханлар, гранитные, каменные полуострова соорудить в современной форме мосты и использовать морские катера для интенсивных способов связи, которое диктует время.

Основное значение этого проекта должно было состоять в том, что необычное здание на одно мгновенье должно было напоминать застывшую волну. Главная идея проекта - создание международного портового города с помощью новейших архитектурно-строительных технологий и достижений градостроительства.

Проект международного пассажирского терминала станет уникальным сооружением. Проектом должна быть предусмотрена чёткая планировка, где на первом уровне терминала должен располагаться паркинг, на втором -огромное пространство холла пассажиров. За основу проекта должны быть предприняты непрекращающиеся пространства, где два основных потока – пассажиры и посетители терминала должны свободно циркулировать (перемещаться) в этом уникальном пространстве, не сталкиваясь друг с другом.

*Олимпийский спортивный комплекс в районе Шамкир (2006)*



Проект бульвара новой постройки Бакинского залива (Биби-Хейбят, Шихово, Баилово и Зых) был одним из последних авторских эскизных работ архитектора Алтая Мир-Багирова. К сожалению, спланированные по эскизному проекту некоторые пункты архитектор А.Мир-Багиров не смог увидеть при жизни наяву, но часть из них реализовалась на высоком уровне и продолжают строиться и претворяться в жизнь.

21 ноября 2011 года архитектор Алтай Мир-Багиров ушёл из жизни в мир иной, оставив своё авторское перо и большое наследие архитектуре Азербайджана и за её пределами.

Многолетняя творческая деятельность талантливого архитектора Алтая Мир-Багирова сохранена в фонде Архива документов науки и техники Азербайджанской Республики с 20.10.2014 года по сей день.

# "Bakcell"dən maraqlı aksiya və onlayn müsabiqə: Daim Online



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi olan Bakcell şirkəti özünün yeni "DaimOnline" tarif paketlərini abunəçilərinə tanıtmaq məqsədilə maraqlı aksiya və onlayn müsabiqə təşkil edib.

Aksiya çərçivəsində Bakının mərkəzində - "Fəvvarələr Meydanı"nda xüsusi "DaimOnline" çadırı quraraq qonaqlara "Foto monitor" və "İnsta Print" kimi əyləncələrdə iştirak edib, maraqlı hədiyyələrə sahib olmaq imkanı verilir. Stendin ziyarətçiləri burada, həmçinin yeni "DaimOnline" tarif paketləri barədə ətraflı məlumat əldə edə bilərlər.

Gənclərin daha çox sosial şəbəkələr və mesajlaşma tətbiqetmələrindən istifadə etməyə üstünlük verdiyini nəzərə alaraq, Bakcell şirkəti bir müddət əvvəl yeni "DaimOnline" paketlərini təqdim edib. Üç variantda və müvafiq olaraq 6, 10 və 20 manat aylıq abunə haqqı ilə təklif olunan yeni tarif paketləri sayəsində istifadəçilər limitsiz "WhatsApp", "Facebook" və "Instagram" istifadəsi ilə yanaşı, qiqabaytlarla internet və bol-bol şəbəkədaxili dəqiqələrdən yararlana bilirlər. Limitsiz "WhatsApp", "Facebook" və "Instagram" imkanı təqdim edən yeni "DaimOnline" tarif paketlərini istifadəyə verməklə, Bakcell gənc abunəçiləri limitsiz ünsiyyət üçün tam sərbəstliklə təmin edib. Bu yeni tariflər sayəsində gənclər daim onlayn olmaq imkanı əldə ediblər.

# AMEA-nın İqtisadiyyat İnstitutu dəyərli əməkdaşını itirdi



AMEA İqtisadiyyat İnstitutu "Aqrar islahatlar və ərzaq təhlükəsizliyi şöbəsi"nin aparıcı elmi işçisi, iqtisad üzrə fəlsəfə doktoru, dosent İlkin Qalib oğlu Soltanlı 2018-ci il sentyabrın 20-də, elmi yaradıcılığının ən məhsuldar bir vaxtında qısa sürən ağır xəstəlikdən sonra vəfat etmişdir. İyulun 27-də 50 yaşı tamam olmuşdu və sonuncu Elmi Şurada İnstitut rəhbərliyi və kollektiv adından yubiley təbrikləri də söylənmişdi...

İ.Q.Soltanlı 1968-ci ildə Ağsu rayonunun Kalva kəndində ziyalı ailəsində anadan olmuşdu. 1985-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) daxil olmuş, 1992-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdi. 1992-1993-cü illərdə Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsində iqtisadçı, 1993-1994-cü illərdə MKM Holdinqdə iqtisadi təhlil və informasiya mərkəzinin rəhbəri, 1994-2000-ci illərdə Azərbaycan İqtisadçılar İttifaqında biznes məsələləri üzrə məsləhətçi, 2000-2001-ci illərdə Vergilər Nazirliyinin "Vergilər" qəzetinin əməkdaşı, 2001-2002-ci illərdə "Mətanət-A" şirkətində iqtisadi əlaqələr üzrə baş menecer və iqtisadi məsələlər üzrə müşavir işləmişdi. 2002-ci ildən AMEA İqtisadiyyat İnstitutunda çalışırdı. 2011-ci ildə iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsini, 2013-cü ildə isə dosent elmi adını almışdı. "Rəqabət mühitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının nəzəri problemləri" adlı elmlər doktorluğu dissertasiyası üzərində çalışırdı. İqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən aqrar sahədə rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşması və dayanıqlı inkişafı, modernləşmə və innovasiya, klasterial inkişaf, istehsal-iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi, sahibkarlıq fəaliyyətinin, həmçinin müxtəlif infrastruktur bölmələrin inkişafı problemlərinə həsr olunan 2 fərdi, 4 kollektiv monoqrafiyanın, 150-yə yaxın elmi məqalə, tezis, digər elmi-populyar əsərlərin müəllifi idi. AMEA İqtisadiyyat İnstitutunda işlədiyi müddətdə kollektivin dərin hörmətini qazanmışdı. İnstitutun elmi-ictimai həyatında yaxından iştirak edirdi. İnstitutun nəzdindəki Elmi Seminar, Kreativ Klub və Dəyirmi Masalarda çox fəal idi, onun elmi məsləhətləri və tövsiyələri həmişə dəyərləndirilirdi. İ.Q.Soltanlı onu tanıyanların yaddaşında səmimi, yoldaşlarına diqqətcil, bütün əməkdaşların uğurlarını, şəxsi problemlərini ürəkdən bölüşməyi bacaran, mehriban, münaqişələrdən uzaq, heç kəsə pisliyi toxunmayan, xeyirxahlığını heç kəsdən əsirgəməyən bir əməkdaş və yoldaş kimi qalacaqdır.

AMEA İqtisadiyyat İnstitutunun kollektivi İ.Q.Soltanlının vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə və yaxınlarına, onu tanıyan bütün dost və yoldaşlarına dərin hüznlə başsağlığı verir və **ALLAHDAN ONA RƏHMƏT DİLƏYİR!**

**Səmədzadə Z.Ə., Müzəffərli (İmanov) N., Muradov A.N., Alıyev Ş.Ş., Abdullayeva R.S., Alıyev İ.H., Muradov Ş.M., Musayev A.F., Paşa T.Ə., Hüseynov T.H., Sultanova R.P., Yüzbaşiyeva G.Z, Qənbərov F.Ə., Quliyev C.B., Gülalıyev M.G., Həsənov Ə.H., Bəqdayeva Y.N., Əliyeva Y.Ə., İslamova Ş.İ., Talıbova B.Q.**




# BƏƏ-də "Tax Free" sistemi tətbiq ediləcək




Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Federal Vergi İdarəsi bildirib ki, 2018-ci ilin noyabrından turistlər üçün əlavə dəyər vergisinin (ƏDV) qaytarılması proseduru həyata keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu əməliyyatların yerinə yetirilməsi üçün eksklüziv operator kimi "Planet" beynəlxalq şirkəti seçilib. BƏƏ-də yerli tərəfdaşları ilə əməkdaşlıq edən bu şirkət "Special-PurposeVehicle" adlı ayrıca müəssisə yaradıb. Qeyd olunur ki, sistemdə qeydə alınan və BƏƏ-dəki mağazalardan bazarlıq edən turistlər ƏDV-nin qaytarılmasını rəsmiləşdirə bilərlər. Həmçinin, əməkdaşın iştirakı olmadan elektron sistem vasitəsilə ƏDV-nin qaytarılması imkanları da nəzərdə tutulub.

# "Şahdağ" rusiyalı turistlər üçün ən yaxşı dağ-xizək kurortlarının ilk üçlüyünə daxil edilib



"TurStat" Analitik Agentliyi MDB-yə üzv olan və yaxın xarici ölkələrin ən məşhur dağ-xizək kurortlarının 2019-cu il üçün siyahısını açıqlayıb.

AZƏRTAC xəbər verir ki, qış istirahəti üçün ən yaxşı dağ-xizək kurortlarının ilk üçlüyünə Qazaxıstan, Gürcüstan və Azərbaycan kurortları daxil edilib.

Reytinqdə ilk üç yeri Qazaxıstanın Çimbulak, Gürcüstanın Qudauri və Azərbaycanın "Şahdağ" kurortu tutub. "Tufandağ" 9-cu yerdədir.

Reytinq 2018/2019-cu qış mövsümü ərzində turist səfərlərinin proqnozlaşdırılan nəticələrinə uyğun olaraq tərtib edilib.

Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və maliyyə institutları" kafedrasının professor-müəllim heyəti kafedranın əməkdaşı i.e.n., dos.
**İMRAN RZAYEVİN**
vəfatı ilə əlaqədar ailəsinə dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500